QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 221 (5452) 2 **dekabr** 2017-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# Azərbaycan ilə Əfqanıstan arasında dostluq əlaqələri genişlənir

*İlham Əliyev: “Bizim gözəl siyasi əlaqələrimiz var. Beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyirik”*



Səh 2

**İlham Əliyev: “Azərbaycan “Asiyanın Qəlbi - İstanbul Prosesi”ni sülhün, təhlükəsizliyin, iqtisadi inkişafın təmin olunması üçün dəyərli mexanizm hesab edir”**



5

**Azərbaycan ilə Estoniya arasında ikitərəfli münasibətlər uğurla inkişaf edir**



4

**Əli Həsənov: Azərbaycan İslam aləmində həmrəyliyin gücləndirilməsinə böyük önəm verir**



7

**Milli Məclisin iclasında 2018-ci ilin dövlət büdcəsi təsdiqlənib**



8

**“Asiyanın Qəlbi - İstanbul Prosesi” çərçivəsində 7-ci nazirlər konfransının Bakı Bəyannaməsi qəbul olunub**



6

**3 Dekabr Beynəlxalq Əlillər Günüdür**



12

9

**Cornelius Zimmerman: “Azərbaycanın Əfqanıstana etdiyi yardımlar yüksək qiymətləndirilir”**



12

**Ermənistan ordusunda hərbi qulluqçular döyülüblər**



16

**Messinin qardaşı həbs olundu**



# Azərbaycan ilə Əfqanıstan arasında dostluq əlaqələri genişlənir

## *İlham Əliyev: “Bizim gözəl siyasi əlaqələrimiz var. Beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyirik”*

***Dekabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə işgüzar səfərdə olan Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani ilə təkbətək görüşü olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qanini qarşıladı. Prezidentlər birgə foto çəkdirdilər. Görüşdə ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olundu. Bakıda keçirilən “Asiyanın Qəlbi - İstanbul Prosesi” çərçivəsində 7-ci nazirlər konfransının əhəmiyyəti qeyd edildi.***

Bu səfərin ölkələrimiz arasında münasibətlərin daha da genişləndirilməsi baxımından əhəmiyyəti vurğulandı. Görüşdə qarşılıqlı maraq doğuran ikitərəfli məsələlər müzakirə edildi.

Dekabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qaninin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub. AZƏRTAC xəbər verir ki, dövlət başçıları görüşdə çıxış etdilər.





**Azərbaycan Prezidenti İlham Əliyev:**

-Hörmətli cənab Prezident, əziz qonaqlar, Azərbaycana bir daha xoş gəlmisiniz. Cənab Prezident, Sizi görməkdən çox məmnunam. Gəlişinizə görə minnətdaram. Bu, Sizin ölkəmizə artıq üçüncü səfərinizdir. Eyni zamanda, bizim bir çox beynəlxalq tədbirlər zamanı görüşmək imkanımız olub. Çox yaxşı şəxsi münasibətlərimiz qurulub. Həmçinin ölkələrimiz arasında əlaqələr çox uğurla inkişaf edir.

Əvvəlcə, mən Sizi və hökumətinizi ölkənizdə inkişaf sahəsində əldə etdiyiniz nailiyyətlərə görə təbrik etmək istərdim. Yanaşmanız Əfqanıstan üçün islahatların yaxşı sürətlə getməsini mümkün etdi. Şadam ki, əməkdaşlığımızın bir hissəsi islahatlarla, xüsusən də dövlət sektoru və digər sahələrlə bağlıdır.

Biz dostuq, biz tərəfdaşıq. Çox güclü siyasi münasibətlərimiz var. Bir-birimizi beynəlxalq təşkilatlarda dəstəkləyirik. İqtisadi və ticari sahələrdə böyük potensial mövcuddur. Bunları Sizinlə artıq müzakirə etdik. Onların sırasında daşımalar və enerji sahələri var. Bu gün keçirdiyimiz təkbətək görüşümüzdən sonra nümayəndə heyətlərimiz gündəliyimizi daha geniş şəkildə müzakirə edəcəklər. Mən ikitərəfli iqtisadi fəaliyyət sahəsində çox sıx çalışmaq üçün aidiyyəti rəsmi şəxslərə müvafiq göstərişlər vermişəm.

Cənab Prezident, bir daha xoş gəlmisiniz.

X X X

**Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qani:**

Bismillahir-rəhmanir-rəhim.

Cənab Prezident, Bakıya gəlməyimiz məmnunluğa çevrilib. Buraya səfərimi, eləcə də mümkün olan təqdirdə hər bir beynəlxalq tədbirdə Sizinlə görüşməyi səmimiyyətlə arzulayırdım. Əvvəlcə, böyük nailiyyətlərlə bağlı Sizi bir daha təbrik etmək istərdim. İcazə verin, illər boyu verdiyiniz dəstəyə görə Əfqanıstan xalqı adından Sizə bir daha minnətdarlığımı bildirim. NATO qüvvələrinin marşrutu, demək olar ki, kəsildiyi zaman, Siz öz hava dəhlizinizi açdınız. Bakının gözəlləşdirilməsinə, onun yüklərin sürətli çatdırılma mərkəzinə çevrilməsinə böyük həcmdə resurslar ayırdınız. İndi isə artıq Lapis-Lazuli sazişi imzalanıb.

Fikrimcə, aramızda səmimi şəxsi münasibətlər, o cümlədən ölkələrimiz arasında yaxşı gələcəyi olan əlaqələr qurulub. İcazə verin, öz mülahizələrimi bildirim. Sonra isə, göstərişlərimiz əsasında həmkarlarımız işləyə bilərlər. Əvvəlcə, Sizin təcrübənizdən öyrənməyi çox arzulayırıq. Rabitə Nazirliyimiz hazırda “ASAN xidmət”i ölkəmizdə həyata keçirir.

Dekabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qaninin iştirakı ilə Azərbaycan-Əfqanıstan sənədlərinin imzalanması mərasimi olub. AZƏRTAC xəbər verir ki, “Azərbaycan Respublikası Hökuməti və Əfqanıstan İslam Respublikası Hökuməti arasında iqtisadi-ticarət sahəsində əməkdaşlıq haqqında Saziş”i Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev və Əfqanıstanın maliyyə naziri Eklil Əhməd Hakimi imzaladılar.

“Azərbaycan Respublikası Hökuməti və Əfqanıstan İslam Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş”i Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev və Əfqanıstanın maliyyə naziri Eklil Əhməd Hakimi imzaladılar.

“Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Əfqanıstan İslam Respublikasının Ali Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş”i Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Əfqanıstanın xarici işlər naziri Səlahuddin Rabbani imzaladılar.

“Azərbaycan Respublikası Hökuməti və Əfqanıstan İslam Respublikası Hökuməti arasında təhlükəsizlik və hüquq mühafizə fəaliyyəti sahəsində Saziş”i Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Əfqanıstanın xarici işlər naziri Səlahuddin Rabbani imzaladılar.

“Azərbaycan Respublikası Hökuməti və Əfqanıstan İslam Respublikası Hökuməti arasında hava xidmətləri haqqında Saziş”i Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Əfqanıstanın xarici işlər naziri Səlahuddin Rabbani imzaladılar.

Dekabrın 1-də sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani mətbuata bəyanatlarla çıxış ediblər.

*Ardı Səh. 3*

# Azərbaycan ilə Əfqanıstan arasında dostluq əlaqələri genişlənir

## *İlham Əliyev: "Bizim gözəl siyasi əlaqələrimiz var. Beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyirik"*

Əvvəli-Səh-2



**Prezident İlham Əliyevin bəyanatı**

-Əvvəlcə, mənim dəvətimi qəbul edərək Azərbaycana səfərə gəldiyinə görə cənab Prezidentə təşəkkürümü bildirmək istəyirəm. Bu səhər biz "Asiyanın Qəlbi" adlanan İstanbul Prosesinin 7-ci nazirlər konfransının açılışını etdik.

Fürsətdən istifadə edərək, Əfqanıstanın böyük sosial və iqtisadi nailiyyətlərinə görə cənab Prezidenti və ölkəsinin hökumətini təbrik etmək istərdim. Bizim cənab Prezidentlə çoxsaylı görüşlərimiz olub. İlk görüşümüzü xatırlayıram və o zaman cənab Prezidentin Əfqanıstanın inkişafı ilə bağlı gələcəyə baxışı məndə dərin təəssürat yaratdı. Şadam ki, onun planları həyata keçir. Əminəm ki, onun başladığı islahatlar, transformasiya və inkişaf yaxşı nəticələr verəcək. Bir dost və tərəfdaş ölkə kimi Azərbaycan bu inkişaf yolunda Əfqanıstanla çiyin-çiyinə dayanmaqdan fəxr edir.

Ölkələrimiz arasındakı diplomatik münasibətlərin tarixinə nəzər salsaq, hazırda əməkdaşlığımız ən yüksək səviyyədədir. Biz yaxşı tərəfdaş və dostuq. Dediyim kimi, biz cənab Prezidentlə mütəmadi qaydada görüşürük və bu, Prezident Əşrəf Qaninin Azərbaycana üçüncü səfəridir. Bunun özü bizim tərəfdaşlığımızın nə dərəcədə yüksək olmasının göstəricisidir.

Bizim gözəl siyasi əlaqələrimiz var. Beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyirik. Biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn normalarına uyğun həll edilməsi məsələsində Əfqanıstanın ədalətli mövqeyinə görə minnətdarıq. Azərbaycan da öz növbəsində bütün beynəlxalq təşkilatlarda Əfqanıstanı dəstəkləyir. Biz Qətiyyətli Dəstək Missiyasının iştirakçısıyıq. Biz multimodal tranzit və hava məkanımızdan istifadəni təmin edirik. Qərar qəbul etmişik ki, Əfqanıstanda xidmət aparan hərbçilərimizin sayını artıraq və bununla da Əfqanıstanda sabitlik, sülh və inkişafa töhfə verək.

Tamamilə aydındır ki, sabitlik yalnız iqtisadi və sosial inkişaf yolu ilə təmin oluna bilər. Həmin səbəbdən müzakirə etdiyimiz mövzular arasında hər zaman iqtisadi xarakterli məsələlər var. Burada biz böyük potensial görürük. Bu gün biz ikitərəfli iqtisadi əməkdaşlığa dair çox vacib məsələləri müzakirə etdik. Müzakirə olunan məsələlər onu göstərir ki, gündəliyimiz olduqca genişdir. Bu gün imzalanan sazişlər də bizə imkan verəcək ki, məqsədlərimizə uğurla nail olaq. Biz iqtisadi əməkdaşlıq və islahatlarla bağlı bütün məsələlərin müzakirəsi üçün birgə işçi qrup yaradacağıq.

Biz fəxr edirik ki, Əfqanıstan "ASAN xidmət"in təcrübəsindən yararlanan dövlətlərdən olacaq. "ASAN xidmət" Azərbaycanda dövlət xidmətləri sahəsində həqiqətən inqilab etdi. Əhali arasında bu qurumun bəyənilmə reytinqi 98 faiz, yəni, 100 faizə yaxındır və bu qurum doğrudan da dövlət xidmətləri sahəsində böyük dəyişikliklər etdi. Çox şadıq ki, biz bu xidmətləri əfqan qardaşlarımız üçün təmin edəcəyik. Azərbaycan müstəqillik dövründə bir sistemdən digərinə - planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçdi. Ölkəmiz xaos, dağıntı, tənəzzül və 1000 faizlik inflyasiyadan inkişaf, tərəqqi və firavanlığa, işsizliyin və yoxsulluğun aşağı səviyyədə olduğu bir vəziyyətə keçid etdi.

Hesab edirəm ki, bizim bu təcrübəmiz əfqan qardaşlarımız üçün maraqlı ola bilər. Praktiki əməkdaşlıq məsələləri sırasında biz bu gün qarşılıqlı ticarətin həcminin artırılması yollarını müzakirə etdik. Burada böyük potensial mövcuddur. Biz Azərbaycanın dövlət və özəl sektora məxsus sərmayəsinin Əfqanıstana qoyuluşunu müzakirə etdik. Sənaye inkişafı və kənd təsərrüfatı, enerji, neft və qaz, mədən sənayesi sahələrində də böyük potensial var.

Əlbəttə ki, biz nəqliyyat şəbəkəsinə dair də müzakirələr apardıq. Azərbaycan və Əfqanıstan irimiqyaslı nəqliyyat layihələrinin iştirakçılarıdır. Bu gün konfrans zamanı hər ikimiz çıxışımızda Lapis-Lazuli nəqliyyat layihəsinə toxunduq. Bu, bütün iştirakçı dövlətlər üçün çox vacib layihədir. Eyni zamanda, Azərbaycan öz qonşu və tərəfdaş ölkələri ilə Bakı-Tbilisi-Qars dəmir yolu layihəsini başa çatdırıb ki, bu Asiyadan Avropaya və geriyə yeni yol açır. Bu yol mövcud olan digər marşrutlar arasında ən qısa yoldur.

Beləliklə, nəqliyyat şəbəkəsinin yaradılması yalnız yeni imkanlar yaratmır, o, həmçinin inkişafa da töhfə verir. Biz öz ölkəmizdə də bunun şahidi oluruq. Hətta kənd yollarını tikəndən sonra biz dərhal istehsalda artım, bazarlara asan çıxış və inkişafın canlanmasını müşahidə edirik. Bu səbəbdən ölkələrimizin Mərkəzi Asiya və Avropa dəmir yolları şəbəkələri ilə birləşdirilməsi həqiqətən də tarixi nailiyyətdir.

Azərbaycan şirkətləri Əfqanıstanda podratçı və investor qismində işləmək arzusundadırlar və buna hazırdırlar. Bizim müvafiq təcrübəmiz var və biz Əfqanıstandakı qardaşlarımıza faydalı olmaq istəyirik. Nəzərə alsaq ki, Prezident və onun həmkarları Əfqanıstanda nəhəng layihələr həyata keçirir və müəyyən planlar da mövcuddur, burada birgə biznes fəaliyyəti üçün böyük potensial var.

Biz bu gün kreditlər, müqavilələr, birgə müəssisələrlə bağlı da müzakirələr apardıq və artıq qeyd etdiyim kimi, iqtisadiyyat, nəqliyyat və enerji sahələrindəki gündəliyimiz olduqca genişdir. Beləliklə, biz razılığa gəldik ki, müvafiq dövlət qurumları bu məsələlərlə gündəlik qaydada məşğul olacaq, mütəmadi surətdə prezidentlərə hesabat verəcəklər. Ümid edirəm ki, bizim müdaxiləmizə ehtiyac yaranmayacaq, işlər vaxtında və lazımi qaydada aparılacaq.

Qarşıdan gələn dövrdə ölkələrimiz arasında iqtisadi sahədə daha da güclü əməkdaşlığın şahidi olacağıq. İqtisadi əməkdaşlığımız siyasi əməkdaşlıqla eyni səviyyədə olmalıdır. Bu, bizim məqsədimizdir. Cənab Prezident, bir daha Sizi salamlayır və bu gün bizimlə burada olduğunuz üçün Sizə təşəkkürümü bildirirəm.

**Prezident Məhəmməd Əşrəf Qaninin bəyanatı**

- Cənab Prezident. Hörmətli nazirlər, azərbaycanlı dostlar.

Əvvəlcə, bizi qəbul etdiyinizə görə minnətdaram. Hər dəfə Bakıya gəldikdən sonra ümidlə qayıdıram. Bütün həmkarlarım da bu cür düşünürlər. Xatırlamaq kifayətdir ki, rəhmətlik atanız və Siz hansı çətinliklərlə üzləşmişdiniz - müharibə, qaçqın və məcburi köçkünlər, səviyyəsi 40 faizi aşan yoxsulluq, həcmi 5 milyard manat olan ümumi daxili məhsul. Nailiyyətləriniz çox yaxşı misaldır, çünki uzun müddət əvvəl, məsələn 6-8 il əvvəl mövcud olanları öyrəndikdə, görürük ki, onlar keçmişdə qaldı.

Əfqanlar buraya gəldikdən sonra öz ölkələrində dəyişiklik etmək inamı ilə qayıdırlar. Bunların əyani sübutu "ASAN xidmət"dir. Maliyyə naziri səfər etdikdən sonra bu təcrübə dərhal tətbiq olunmağa başladı. Müvafiq qurum yaradıldı və o, Rabitə Nazirliyinin tabeliyinə verildi.

Cənab Prezident, Azərbaycan böyük məsuliyyət hissi olan qlobal iştirakçıdır. Mən Çikaqoda keçirilmiş NATO konfransındakı çıxışınızı xatırlayıram. Həmin vaxt Siz ilk dəfə olaraq "Şimal dəhlizi" və böyük sərmayələr proqramını qeyd etdiniz. Cənab Prezident, Sizin gördüyünüz işlər, sadəcə desək, NATO-nun missiyasını mümkün etdi.

Bakı əməliyyatları ən sürətlə icra edən məkan nüfuzunu qazandı. NATO komandanları və generalları ilə söhbət etdikdə, onlar bu marşrutun səmərəliliyini, etibarlılığını və tam şəffaflığını qeyd etdilər. Heç kəsin heç bir problemi olmadı. İndi isə həmin dəhliz müdrik rəhbərliyiniz və göstərişlərinizlə bir tərəfdən Lapis-Lazuli yoluna, digər tərəfdən isə multimodal daşımalar sisteminə çevrilir. Onun sayəsində biz Avropaya, Sizin ölkəyə və əksinə çıxış əldə edirik. Bu, uzaqgörənliyin və müdrikliyin, rəhbərlik keyfiyyətlərinin, olduqca böyük diqqətin bariz nümunəsidir. Siz bu keyfiyyətlərlə tanınırsınız və biz onların sayəsində nəticə qazanırıq.

Biz Azərbaycanın beynəlxalq hüquqa əsaslanan ədalətli, əsaslı mövqeyini daim tam dəstəkləyəcəyik. Dəstək verməyə hər zaman hazırıq. Biz hərbi qulluqçularınızın sayının artırılması ilə əlaqədar bu yaxınlarda Brüsseldə bəyan etdiyiniz qərarı çox yüksək qiymətləndiririk. Hərbçiləriniz mübarizdirlər, şərəflə xidmət edirlər. Bu, bizim üçün böyük şərəfdir.

Cənab Prezident, qeyd etdiyiniz iqtisadi gündəlik olduqca genişdir, çoxşaxəlidir və böyük fayda gətirir. Orada olan məsələlərin hər birinin işlənib hazırlanmasından etibarən, söyləyə bilərəm ki, yaratdığımız çərçivə bizi daha da yaxınlaşdırır. O, Azərbaycan biznes dairələrini, dövlət şirkətlərini ölkəmizə gətirir. Əlbəttə, vaxt keçdikcə Azərbaycan və Əfqanıstan xalqları daha böyük harmoniyaya nail olacaqlar, dostluq, tərəfdaşlıq və qarşılıqlı fayda dəyərlərini artıracaqlar.

Yaradılmış işçi qrupu indicə imzalanmış sazişlər baxımından öz işini davam etdirəcək. Çox səmimiyyətlə arzulayırıq ki, Azərbaycanın özəl və dövlət sektoru ölkəmizə gəlsin. Maliyyə Nazirliyində, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində aparılmış dəyişikliklər təcrübəsi, sənaye inkişafı və xüsusən də yaradılmış Neft Fondu - əla misallardır. Çünki Əfqanıstandakı vəziyyət Azərbaycanın müharibədən sonrakı durumla üzləşdiyi çağırışlarla eynidir. Digərləri bunu görmür.

Cənab Prezident, Sizin rəhbərliyinizin xüsusiyyəti ondan ibarətdir ki, Siz bizim bugünkü yox, gələcək günümüzü görürsünüz. Azərbaycanın durumu inkişaf, fayda gətirən gələcək durum kimi götürülə bilər.

Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qani Azərbaycanın iqtisadi sahədə əldə etdiyi uğurlu təcrübələrin ölkəsində də tətbiq edilməsindən məmnunluğunu ifadə etdi. Əfqanıstanın dövlət başçısı Bakıda keçirilən "Asiyanın Qəlbi - İstanbul Prosesi" çərçivəsində "Gücləndirilmiş Asiyanın Qəlbi regionuna doğru təhlükəsizlik və iqtisadi bağlantılar" mövzusunda 7-ci nazirlər konfransının yüksək səviyyədə təşkilinə görə minnətdarlığını bildirdi.

# Azərbaycan ilə Estoniya arasında ikitərəfli münasibətlər uğurla inkişaf edir

## *Prezident İlham Əliyev Estoniyanın xarici işlər nazirini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 1-də Estoniya Respublikasının xarici işlər naziri Sven Mikseri qəbul edib. AZƏRTAC xəbər verir ki, Estoniyanın xarici işlər naziri Sven Mikser Bakıda keçirilən "Asiyanın Qəlbi - İstanbul Prosesi" çərçivəsində "Gücləndirilmiş Asiyanın Qəlbi regionuna doğru təhlükəsizlik və iqtisadi bağlantılar" mövzusunda 7-ci nazirlər konfransının yüksək səviyyədə təşkilinə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Sven Mikser ölkəsinin Avropa İttifaqına sədrliyi dövründə Azərbaycana səfər etməsindən məmnunluğunu ifadə etdi. Estoniyalı nazir bu yaxınlarda Brüsseldə keçirilən Şərq Tərəfdaşlığı Sammitinin önəmini vurğulayaraq bu Sammitdə iştirakına görə Prezident İlham Əliyevə təşəkkür etdi. Sven Mikser Avropa İttifaqı-Azərbaycan əlaqələrinin uğurla inkişaf etdiyini deyərək bu əlaqələrin gələcəkdə də inkişaf edəcəyinə əminliyini bildirdi.

Dövlətimizin başçısı İlham Əliyev Şərq Tərəfdaşlığı Sammitinin uğurla keçirildiyini vurğulayaq orada aparılan müzakirələrin, qəbul olunmuş Birgə Bəyannamənin əhəmiyyətini qeyd etdi. Azərbaycan-Avropa İttifaqı əlaqələrinə toxunan dövlətimizin başçısı bu təşkilatın üzv dövlətləri ilə yaxın tərəfdaşlıq əlaqələrinin qurulduğunu və artıq 9 üzv dövlətlə strateji tərəfdaşlıq bəyannamələrinin imzalandığını vurğuladı. Prezident İlham Əliyev hazırda Azərbaycan ilə Avropa İttifaqı arasında yeni saziş üzrə fəal danışıqların aparıldığını qeyd etdi və yaxın zamanlarda bu prosesin başa çatacağına ümidvar olduğunu dedi. Dövlətimizin başçısı Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığında energetika, nəqliyyat və digər sahələrdə böyük irəliləyişlərə nail olunduğunu vurğuladı. Bakıda keçirilən 7-ci nazirlər konfransının əhəmiyyətinə toxunan Prezident İlham Əliyev Azərbaycanın Əfqanıstanda sülhməramlı missiyaya fəal şəkildə dəstək göstərdiyini vurğuladı. Prezident İlham Əliyev Azərbaycan ilə Estoniya arasında ikitərəfli münasibətlərin də uğurla inkişaf etdiyini dedi. Estoniya şirkətlərinin Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları sahəsində iştirakının önəmini vurğulayan dövlətimizin başçısı ölkələrimizin ticarət, turizm, nəqliyyat və digər sahələrdə əməkdaşlığının genişlənməsi üçün yaxşı imkanların olduğunu qeyd etdi.

# Prezident İlham Əliyev İranın xarici işlər nazirini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 1-də İran İslam Respublikasının xarici işlər naziri Məhəmməd Cavad Zərifi qəbul edib.

AZƏRTAC xəbər verir ki, xarici işlər naziri Məhəmməd Cavad Zərif İran Prezidenti Həsən Ruhaninin salamlarını dövlətimizin başçısına çatdırdı. Məhəmməd Cavad Zərif Bakıda keçirilən "Asiyanın Qəlbi - İstanbul Prosesi" çərçivəsində "Gücləndirilmiş Asiyanın Qəlbi regionuna doğru təhlükəsizlik və iqtisadi bağlantılar" mövzusunda 7-ci nazirlər konfransının təşkili ilə bağlı göstərilən qonaqpərvərliyə görə Prezident İlham Əliyevə minnətdarlıq etdi. O, İran ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini dedi və əlaqələrin genişləndirilməsi işində Azərbaycan Prezidentinin verdiyi dəstəyə görə təşəkkürünü bildirdi. Ölkələrimiz arasında siyasi dialoqun gücləndirilməsində böyük irəliləyişlərin əldə edildiyini deyən iranlı nazir iqtisadi əməkdaşlığımızın da genişləndirilməsi üçün yaxşı imkanların olduğunu dedi. Məhəmməd Cavad Zərif Azərbaycan ilə İranın üçtərəfli formatlarda iştirakının önəmini qeyd etdi.

Prezident İlham Əliyev İrana son səfərini məmnunluqla xatırlayaraq orada keçirilən üçtərəfli sammiti beynəlxalq səviyyədə mühüm tədbir kimi dəyərləndirdi və səfər zamanı İran Prezidenti ilə səmərəli müzakirələrin aparıldığını qeyd etdi. Dövlətimizin başçısı bildirdi ki, ölkələrimiz arasında ikitərəfli əməkdaşlıq, dostluq əlaqələri uğurla inkişaf edir. Prezident İlham Əliyev bu əlaqələrin gələcəkdə də genişlənəcəyinə əminliyini ifadə etdi. Dövlətimizin başçısı Prezident Həsən Ruhaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi.

## Rəsmi xronika

Prezident İlham Əliyev Azərbaycan Respublikası vətəndaşlarının 2018-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Sərəncam imzalayıb.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Zayed Al Nəhyana təbrik məktubu göndərib. Təbrikdə deyilir: "Əlahəzrət, Birləşmiş Ərəb Əmirliklərinin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi qəlbdən təbrik edirəm. Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Birləşmiş Ərəb Əmirliklərinin dost xalqına daim sülh və rifah diləyirəm".

* * *

Dövlət başçısı Birləşmiş Ərəb Əmirliklərinin Vitse-prezidenti, Baş naziri və Dubay Əmiri Məhəmməd bin Rəşid Al Məktuma təbrik məktubu göndərib: "Əlahəzrət, Birləşmiş Ərəb Əmirliklərinin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi yetirirəm. Bu bayram gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Birləşmiş Ərəb Əmirliklərinin dost xalqına daim sülh və firavanlıq diləyirəm".

* * *

Azərbaycan Prezidenti Laos Prezidenti Bounyanq Volaçitə təbrik məktubu göndərib: Təbrikdə deyilir: "Hörmətli cənab Prezident, Laos Xalq Demokratik Respublikasının milli bayramı - Respublika Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm. Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Laos xalqına sülh və firavanlıq arzulayıram".

* * *

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 851-VQD nömrəli Qanununun tətbiqi barədə Sərəncam imzalayıb.

# İlham Əliyev: “Azərbaycan “Asiyanın Qəlbi - İstanbul Prosesi”ni sülhün, təhlükəsizliyin, iqtisadi inkişafın təmin olunması üçün dəyərli mexanizm hesab edir”




***Dekabrın 1-də Bakıda “Asiyanın Qəlbi - İstanbul Prosesi” çərçivəsində “Gücləndirilmiş Asiyanın Qəlbi regionuna doğru təhlükəsizlik və iqtisadi bağlantılar” mövzusunda 7-ci nazirlər konfransı keçirilib.***

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani konfransda iştirak ediblər.

Əfqanıstanın xarici işlər naziri Səlahuddin Rabbani konfransı açıq elan etdi. O, çıxışında bu tədbirə yüksək səviyyədə ev sahibliyi etdiyinə görə Azərbaycan hökumətinə təşəkkürünü bildirərək dedi: “İlk növbədə, fürsətdən istifadə edərək iştirakçı və dəstəkləyici ölkələrin xarici işlər nazirlərini, yüksək səviyyəli nümayəndələrini, regional və beynəlxalq təşkilatların rəsmilərini gözəl Bakı şəhərində “Asiyanın Qəlbi - İstanbul Prosesi” çərçivəsində “Gücləndirilmiş Asiyanın Qəlbi regionuna doğru təhlükəsizlik və iqtisadi bağlantılar” mövzusunda 7-ci nazirlər konfransında salamlamaq istərdim. Biz səmimi qonaqpərvərliyə və bu mühüm konfransın yüksək səviyyədə təşkilinə görə Azərbaycan hökumətinə minnətdarlığımızı bildiririk. Biz bu gün Bakıda 7-ci nazirlər toplantısında görüşürük. Bu görüş Əfqanıstanın və Asiyanın Qəlbi regionunda sülhün və tərəqqinin təbliği ilə bağlı qarşıda duran hədəfə çatmaq məqsədi daşıyan bu prosesin uğuru üçün eyni öhdəliyi paylaşdığımızı bir daha təsdiqləyir”.

Səlahuddin Rabbani Asiyanın Qəlbi olan regionda sülhün və əmin-amanlığın təmin edilməsi baxımından bu tədbirin önəmini vurğuladı. “Bu tədbir bir daha bizim müştərək öhdəliyimizi əks etdirir”, - deyən Səlahuddin Rabbani əsas diqqətin regionda iqtisadi inkişafa və əməkdaşlığın daha da dərinləşməsinə yönəldiyini diqqətə çatdırdı. O, terrorla mübarizədə etimadın yaradılması tədbirlərinə rəhbərlik edən ölkələrin proqram və layihələrini həyata keçirməklə bağlı fəal rolunu xüsusi vurğuladı. 2011-ci ildən başlayan prosesin artıq 7-ci dəfədir reallaşdığını, gələn il tədbirin Türkiyədə keçiriləcəyini dedi. Sonra dövlətimizin başçısı konfransda nitq söylədi.

**Azərbaycan Prezidenti İlham Əliyevin nitqi**

-Hörmətli cənab Prezident Əşrəf Qani.
Nümayəndə heyətlərinin rəhbərləri.
Xanımlar və cənablar.

“Asiyanın Qəlbi - İstanbul Prosesi”nin iştirakçı və dəstəkləyici ölkələrini və təşkilatlarını Bakıda keçirilən 7-ci nazirlər toplantısında salamlayıram.

Zati-aliləri, möhtərəm Prezident Məhəmməd Əşrəf Qaniyə nazirlərin Bakı toplantısının açılışında iştirak üçün mənim dəvətimi qəbul etdiyinə görə minnətdarlığımı ifadə edirəm.

Azərbaycan “Asiyanın Qəlbi - İstanbul Prosesi”ni Əfqanıstanda sülhün, barışığın, təhlükəsizliyin və iqtisadi inkişafın əldə edilməsi istiqamətində dialoq və əməkdaşlıq üçün dəyərli mexanizm hesab edir. 2012-ci ildə prosesə qoşulandan bəri biz bu çoxtərəfli platformada fəal şəkildə iştirak etməkdəyik.

Beynəlxalq hüququn norma və prinsiplərinə hörmət və riayət edilməsi, xüsusilə suverenlik, ərazi bütövlüyü və dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı, suveren bərabərliyə hörmət və daxili işlərə qarışmama regional və beynəlxalq təhlükəsizliyin təmin edilməsində təməl olmaqla, sabitlik və yaxşılıq təmin edir. Bu prinsiplər İstanbul Prosesi çərçivəsində bizim münasibətlərimiz və əməkdaşlığımız üçün zəmin təşkil edir və bu, “Asiyanın Qəlbi” Bəyannamələrində bir daha vurğulanmışdır.

Müstəqilliyinin bərpasının ilk illərindən Azərbaycanın təhlükəsizliyi Ermənistanın hərbi təcavüzü nəticəsində ciddi təhdidlərlə üzləşmişdir. Azərbaycan ərazisinin beşdəbir hissəsinin davam etməkdə olan işğaldan və yüz minlərlə vətəndaşının məcburən öz torpaqlarından qovulmasından əziyyət çəkən ölkə kimi sülh, təhlükəsizlik və sabitliyin dəyərini tam anlayır. Ermənistan 20 ildən çoxdur ki, Azərbaycanın təqribən 20 faiz ərazisini - Dağlıq Qarabağı və ölkəmizin digər 7 rayonunu işğal altında saxlayır. Bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Ermənistan azərbaycanlılara qarşı Ermənistanda, Dağlıq Qarabağda və Azərbaycanın digər 7 rayonunda etnik təmizləmə siyasəti həyata keçirib.

İşğal olunmuş ərazilərdəki vəziyyət beynəlxalq ictimaiyyətə məlumdur. ATƏT işğal olunmuş torpaqlara iki dəfə faktaraşdırıcı və qiymətləndirmə missiyaları göndərib və onların hesabatlarında həmin torpaqlarda vandalizm aktlarının törədildiyi göstərilib. Şəhərlərimiz və kəndlərimiz, binalar, məzarlar və qəbiristanlıqlar, məscidlər Ermənistan tərəfindən dağıdılıb.

1993-cü ildə BMT-nin Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən dərhal və qeydşərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul etmişdir. Status-kvo qəbuledilməzdir. Bunu təkcə Azərbaycan deyil, həm də ATƏT-in Minsk qrupuna həmsədrlik edən ölkələr deyir. Bu ölkələrin prezidentləri bir neçə dəfə bəyan ediblər ki, status-kvo dəyişdirilməlidir, bu, qəbuledilməzdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq, BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında həll olunmalıdır. Azərbaycanın ərazi bütövlüyü tam şəkildə bərpa edilməlidir.

Hörmətli qonaqlar, Azərbaycan Əfqanıstanın qarşısında duran çağırışların öhdəsindən gəlməsində onu dəstəkləyən birinci və ən fəal ölkələr sırasındadır. Biz ikitərəfli səylər və eləcə də çoxtərəfli platforma çərçivəsində fəal iştirakımızla Əfqanıstanda ölkənin sabitliyinə, sülh şəraitində yenidənqurma və inkişafına yardım işinə sadiq olaraq qalırıq.

Əfqanıstanın rifahı və tərəqqisi iqtisadi artım və regional əməkdaşlıq məsələləri ilə qarşılıqlı şəkildə bağlıdır və regionun ümumi təhlükəsizlik mühitindən asılıdır. Çox önəmlidir ki, Əfqanıstanın yenidən qurulması və iqtisadi inkişafı məsələlərinə səylərimizin yönəldilməsi ilə yanaşı, biz ölkənin indiyədək əldə etdiyi tərəqqini qoruyub saxlamaq üçün Əfqanıstanın üzləşdiyi təhlükəsizlik çağırışlarını həll etməkdə davam edirik.

Belə ki, terrorizm, radikal ekstremizm və separatizmin bütün forma və ifadə vasitələrindən qaynaqlanan təhlükəsizlik təhdidləri ilə mübarizədə birgə səylərimizin davam etdirilməsi və bu məqsədlə regional əməkdaşlığın artırılması vacibdir.

Azərbaycan ikitərəfli müstəvidə, eləcə də idarəçilik, hərbi, hüquq mühafizə və minaların təmizlənməsi sahələri üzrə təlimlər vasitəsilə Əfqanıstanla öz təcrübəsini bölüşməyə sadiqdir. Biz Beynəlxalq Təhlükəsizliyə Dəstək Qüvvələrindən (İSAF) sonrakı Qətiyyətli Dəstək Missiyasına (RSM) qüvvə, multimodal tranzit, təlim və maliyyə yardımı təchiz etməklə töhfə veririk.

Şəffaf, korrupsiyaya və rüşvətə dözümsüz olan Azərbaycanın Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi - “ASAN xidmət” Əfqanıstanla fəal şəkildə əməkdaşlıq edir. Bu əməkdaşlıq vətəndaşlara ictimai və fərdi xidmətlər göstərən “bir pəncərə” mərkəzlərinin yaradılması ilə Əfqanıstanın ictimai xidmətlərinin inkişaf etdirilməsinə yönəlmişdir.

Azərbaycan, eyni zamanda, geniş regional bağlılıq vasitəsilə Əfqanıstanın regional iqtisadiyyata inteqrasiyası, eləcə də öz qonşu və daha geniş region ölkələri ilə ticarətin canlandırılması üçün Əfqanıstanla əməkdaşlıq edir.

Azərbaycanın təşəbbüskarı olduğu və davam etməkdə olan regional bağlılıq layihələri, o cümlədən bu yaxınlarda açılışı olmuş Bakı-Tbilisi-Qars dəmir yolu, yeni Bakı Beynəlxalq Dəniz Ticarəti Limanı, Azərbaycan ilə İran arasında dəmir yolu şəbəkələrini əlaqələndirən Xəzər dənizi sahilindəki logistik mərkəz kimi strateji təməl komponentləri, Şərq-Qərb və Şimal-Cənub istiqamətləri üzrə çoxtərəfli imkanlara malik transregional infrastrukturun inkişafında keyfiyyətcə yeni nailiyyətləri nümayiş etdirir. Bu layihələr Əfqanıstanın qlobal bazara çıxışını asanlaşdıracaq və bölgədə yükdaşımaların daha qısa, daha sürətli və daha səmərəli şəkildə həyata keçirilməsinə imkan yaradacaq bağlılığı təmin edəcəkdir. Azərbaycan, Əfqanıstan, Gürcüstan, Türkiyə və Türkmənistan tərəfindən bu yaxınlarda imzalanmış Lapis-Lazuli razılaşması Əfqanıstanı birbaşa Avropa ilə əlaqələndirəcək başlıca beynəlxalq, ticarət və nəqliyyat dəhlizi razılaşmasıdır. Bu, Əfqanıstanın Avrasiya boyu ticarəti artırmaq üçün infrastrukturun qurulması və təkmilləşdirilməsi vasitəsilə bağlılığa nail olmaq səylərində əldə olunmuş mühüm mərhələdir. Azərbaycan bu razılaşmanın bir hissəsi olaraq tranzit və nəqliyyat baxımından Əfqanıstan üçün çoxsaylı seçimlərin təmin edilməsinə töhfə verməkdən məmnundur.

Ardı Səh. 6

# İlham Əliyev: “Azərbaycan “Asiyanın Qəlbi - İstanbul Prosesi”ni sülhün, təhlükəsizliyin, iqtisadi inkişafın təmin olunması üçün dəyərli mexanizm hesab edir”




**Əvvəli-Səh-5**

Əfqanıstanın regional ticarət, tranzit və nəqliyyat üçün vacib qovşaq qismində rolunu nəzərə alaraq bu coğrafi mövqenin faydalarını bölüşmək və Əfqanıstanda davamlı inkişafı dəstəkləmək baxımından Əfqanıstan üzrə Regional İqtisadi Əməkdaşlıq Konfransının (RECCA) rolu çox mühümdür.

Əfqanıstana yardım yalnız insan həmrəyliyi məsələsi deyil. Bu, bütün region üçün regional iqtisadi əməkdaşlıq kontekstində ölkənin təhlükəsizliyini təmin etmək və böyük potensialını aşkarlamaqdan ibarətdir. Asiyanın Qəlbi regionunda sülhün, təhlükəsizliyin və rifahın təmin edilməsinin iki əsas istiqaməti üzrə strateji müzakirələrin aparılması məqsədilə Bakıda keçirilən nazirlər toplantısının mövzusu “Gücləndirilmiş Asiyanın Qəlbi regionuna doğru təhlükəsizlik və iqtisadi bağlantılar” seçilmişdir. Əminik ki, uyğun coğrafi mövqeyi, xalqının əzmkarlığı və hökumətin səyləri ilə Əfqanıstan Asiyanın Qəlbi regionunda regional ticarət və bağlılıqda vacib tərəfə çevriləcəkdir.

İnanıram ki, 2015-2025-ci transformasiya onilliyində Əfqanıstana dəstək olmaq üçün birgə səylərimiz Əfqanıstanın layiq olduğu təhlükəsiz, vahid, çiçəklənən və qonşuları ilə sülh şəraitində yaşayan ölkə olmaq məqsədlərinə nail olması üçün mühüm pillədir.

Əfqanıstanın suverenliyinə, ərazi bütövlüyünə və siyasi müstəqilliyinə Azərbaycanın dəstəyini vurğulayır və Milli Birlik Hökumətinin qardaş və dost əfqan xalqı üçün vahid və sülh şəraitində çiçəklənən gələcəyə nail olmaq istiqamətində səylərinə uğurlar arzulayıram. Sağ olun.

X X X

**Daha sonra Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qani çıxış edib:**

-Biz regional əməkdaşlığa ehtiyacın heç vaxt indiki qədər böyük olmadığı bir vaxtda görüşürük. Qarşımızda duran böyük iqtisadi imkanlar bizi cəlb edir, zərərli transmilli şəbəkələr və cinayətkar təşkilatlar isə bizə təhlükə törədir. Coğrafiya bizi qonşulara çevirib. Ümumi baxış, liderlik, siyasi iradə, idarəçiliyə güclü diqqət bizi bir-birindən asılı olan dünyada regional və qlobal təhlükəsizlik çərçivəsində milli təhlükəsizlik və tərəqqiyə can atan tərəfdaşlara çevirəcək.

Cənab Prezident, icazə verin, bizi tarixi və gündən-günə gözəlləşən Bakı şəhərində qəbul etdiyinizə görə Sizə və Azərbaycan xalqına təşəkkür edim. Sizin Şimal marşrutunun açılması ilə bağlı rəhbərliyiniz bizim təhlükəsizliyimiz üçün mühüm əhəmiyyət kəsb edir və onun çoxmodullu nəqliyyat sistemində Lapus-Lazuli dəhlizinə çevrilməsi regional və qlobal iqtisadi bağlılıqda aparıcı rol oynayacaq. Sizin cəsur əsgərləriniz bizim təhlükəsizliyimizə, Beynəlxalq Təhlükəsizliyə Dəstək Qüvvələrinə və Qətiyyətli Dəstək Missiyasına öz töhfələrini veriblər. Biz Sizin hərbi dəstəyin artırılması ilə bağlı son bəyanatınızı alqışlayırıq. Siz özünüzə miras qalmış elan olunmamış müharibədən, məcburi köçkünlük, yoxsulluq, cinayətkarlıq və korrupsiyadan qaynaqlanan problemlərinizi həll edərək bizim problemlərimizi və perspektivlərimizi dərindən başa düşdüyünüzü nümayiş etdirmisiniz. 2000-ci ildən başlayaraq ümumi daxili məhsulun yüksəlməsi timsalında Sizin problemlərin öhdəsindən gəlməkdə əldə etdiyiniz uğur sabitlik və rifah axtarışımızda bizə inam verir. Davamlı islahatlar və ya nümunələr vasitəsilə iqtisadiyyatınızı sistematik olaraq şaxələndirməyiniz bizi sevindirir. Siz birbaşa təlim və paylaşma vasitəsilə bizə ən yaxşı formada texniki yardım göstərirsiniz. Mən bu gün ölkələrimiz arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması üzrə sazişin, eləcə də digər sazişlərin imzalanmasını səbirsizliklə gözləyirəm.

“Asiyanın Qəlbi - İstanbul Prosesi”nə dəstək verən bütün ölkələrə və beynəlxalq təşkilatlara minnətdarlıq edən Prezident Məhəmməd Əşrəf Qani hazırda Əfqanıstanın təhlükəsizliyinin təmin edilməsi üçün yol xəritəsinin həyata keçirildiyini bildirdi, ölkəsinin Asiya regionunda tutduğu mövqedən danışdı, əfqan xalqının və hökumətinin mövcud problemlərin aradan qaldırmaq yolunda əzmlə çalışdığını dedi. Bu istiqamətdə İŞİD və terrorizmin bütün təzahürlərinə qarşı mübarizə, narkotiklərin qarşısının alınması ilə bağlı tədbirlərin görüldüyünü deyən Məhəmməd Əşrəf Qani son illərdə Əfqanıstanda infrastrukturun yaradılması, qonşu ölkələrlə ticari və iqtisadi əlaqələrin genişləndirilməsi sahəsində görülən işlərdən də bəhs etdi. Əfqanıstanın təbii ehtiyatlarından səmərəli istifadəyə, ölkədə kənd təsərrüfatının inkişafı sahəsində geniş fəaliyyət proqramına başlandığını və uğurla icra edildiyini diqqətə çatdırdı.

X X X

Sonda birgə foto çəkdirildi.

Xatırladaq ki, “Asiyanın Qəlbi - İstanbul Prosesi” Asiyanın Qəlbi regionunda sabitlik, sülh və çiçəklənmənin təşviqi və Əfqanıstanın bütün region ilə bağlantısının genişləndirilməsi üçün siyasi dialoq və sıx regional əməkdaşlıq üçün vacib regional platformadır.

“Asiyanın Qəlbi - İstanbul Prosesi”ndə iştirak edən dövlətlər və təşkilatlar sırasına Əfqanıstan İslam Respublikası, Azərbaycan Respublikası, Çin Xalq Respublikası, Hindistan Respublikası, İran İslam Respublikası, Qazaxıstan Respublikası, Qırğız Respublikası, Pakistan İslam Respublikası, Rusiya Federasiyası, Səudiyyə Ərəbistanı Krallığı, Tacikistan Respublikası, Türkiyə Respublikası, Türkmənistan, Birləşmiş Ərəb Əmirlikləri və Birləşmiş Millətlər Təşkilatı daxildir. Bu proses çoxsaylı digər dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən də dəstəklənir. Regional sülh, sabitlik və çiçəklənməyə töhfə vermək əzminə və Əfqanıstanla ənənəvi dostluq əlaqələrinə malik olan Azərbaycan 2012-ci ildə “Asiyanın Qəlbi - İstanbul Prosesi”nə qoşulub.

## “Asiyanın Qəlbi - İstanbul Prosesi” çərçivəsində 7-ci nazirlər konfransının Bakı Bəyannaməsi qəbul olunub

“Asiyanın Qəlbi - İstanbul Prosesi” çərçivəsində 7-ci nazirlər konfransının Bakı Bəyannaməsi qəbul olunub. AZƏRTAC xəbər verir ki, növbəti toplantının gələn il Türkiyədə keçirilməsi nəzərdə tutulur.



“Asiyanın Qəlbi - İstanbul Prosesi” Asiyanın Qəlbi regionunda sabitlik, sülh və çiçəklənmənin təşviqi və Əfqanıstanın bütün region ilə bağlantısının genişləndirilməsi üçün siyasi dialoq və sıx regional əməkdaşlıq üçün vacib regional platformadır.

“Asiyanın Qəlbi - İstanbul Prosesi”ndə iştirak edən dövlətlər və təşkilatlar sırasına Əfqanıstan İslam Respublikası, Azərbaycan Respublikası, Çin Xalq Respublikası, Hindistan Respublikası, İran İslam Respublikası, Qazaxıstan Respublikası, Qırğız Respublikası, Pakistan İslam Respublikası, Rusiya Federasiyası, Səudiyyə Ərəbistanı Krallığı, Tacikistan Respublikası, Türkiyə Respublikası, Türkmənistan, Birləşmiş Ərəb Əmirlikləri və Birləşmiş Millətlər Təşkilatı daxildir. Bu proses çoxsaylı digər dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən də dəstəklənir. Regional sülh, sabitlik və çiçəklənməyə töhfə vermək əzminə və Əfqanıstanla ənənəvi dostluq əlaqələrinə malik olan Azərbaycan 2012-ci ildə “Asiyanın Qəlbi - İstanbul Prosesi”nə qoşulub.

# Əli Həsənov: Azərbaycan İslam aləmində həmrəyliyin gücləndirilməsinə böyük önəm verir



***Dekabrın 1-də Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov Beynəlxalq Avrasiya Mətbuat Fondu və İslam Əməkdaşlıq Təşkilatına üzv Dövlətlərin Jurnalistləri Assosiasiyasının dəvəti ilə ölkəmizə səfərə gəlmiş Misirin aparıcı media nümayəndələri ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə Əli Həsənov qonaqlara Azərbaycanın tarixi, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan dövlətçilik siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilməsi nəticəsində ölkəmizin sürətli inkişafı barədə ətraflı məlumat verib.***

Azərbaycanın İslam aləmində həmrəyliyin gücləndirilməsinə böyük önəm verdiyini bildirən Əli Həsənov tarix boyu ölkəmizdə mövcud olmuş multikultural və tolerant mühitdən danışıb. Azərbaycanın özünün tolerantlıq modelini, mədəniyyətlər və sivilizasiyalar arası dialoqu bütün dünyada fəal təbliğ və təşviq etdiyini diqqətə çatdıran Prezidentin köməkçisi ölkəmizin ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən söz açıb.

Əli Həsənov müsəlman ölkələrinin mətbuat nümayəndələri arasında əməkdaşlığın vacibliyini vurğulayaraq, xalqlarımızın və ölkələrimizin uğurlarının təbliği, problemlərinin dünya ictimaiyyətinin diqqətinə çatdırılması baxımından bu işbirliyinin önəmini qeyd edib, misirli jurnalistlərin suallarını cavablandırıb.

Nümayəndə heyətinin üzvləri Azərbaycana səfərdən məmnunluqlarını ifadə edib, görüş üçün yaradılan şəraitə görə minnətdarlıqlarını bildiriblər. Sonda qonaqlara son iki əsrdə ermənilərin Azərbaycan xalqına qarşı həyata keçirdiyi soyqırımı siyasəti və qətliamlarla bağlı faktların yer aldığı nəşrlər təqdim olunub.

# Bakıda Azərbaycanın və İranın xarici işlər nazirlərinin görüşü olub

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov "Asiyanın Qəlbi - İstanbul Prosesi" çərçivəsində Bakıda keçirilən 7-ci Nazirlər Konfransında iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan İranın xarici işlər naziri Cavad Zəriflə görüşüb.



Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə nazirlər İran və Azərbaycan arasında dostluq və mehriban qonşuluq münasibətlərinin müxtəlif sahələrdə inkişafı istiqamətində atılan davamlı səyləri təqdir ediblər.

Nazirlər ikitərəfli münasibətlərin ruhuna uyğun olaraq, müxtəlif formatlarda da əməkdaşlığın dərinləşdirilməsinin əhəmiyyətini qeyd ediblər. Bu xüsusda, 19-20 dekabr tarixlərində Bakıda keçirilməsi planlaşdırılan Azərbaycan-İran-Türkiyə üçtərəfli görüşünün regional əməkdaşlıq baxımdan vacib rolunu nəzərə çatdırıblar və üçtərəfli əməkdaşlığın yeni formatlarının yaradılmasına dair fikir mübadiləsi aparıblar. Tərəflər Şimal-Cənub nəqliyyat dəhlizinin inkişafı ilə əlaqədar məsələlərə toxunublar və bu layihənin Cənubi Asiya ilə Şimali Avropanı birləşdirən və regionlar boyunca əməkdaşlığı və çiçəklənməni təşviq edəcəyinə əminlik ifadə ediblər. Nazirlər Xəzər dənizinin hüquqi statusuna dair məsələləri müzakirə ediblər və Azərbaycanın və İranın digər Xəzəryanı dövlətlərlə birlikdə Xəzər dənizini dostluq və əməkdaşlıq məkanı kimi inkişaf etdirmək əzmini ifadə ediblər.

Görüş əsnasında "Asiyanın Qəlbi-İstanbul Prosesi"nin Əfqanıstan, ümumilikdə isə bütün region və onun hüdudlarından kənarda sabitlik, təhlükəsizlik və tərəqqinin təşviqi istiqamətində iştirakçı və dəstəkləyən tərəflərin səylərini birləşdirdiyi unikal platforma olduğu vurğulanıb və bu xüsusda VII Bakı nazirlər toplantısının əhəmiyyəti qeyd olunub.



# Naxçıvanda sosial qayğıya ehtiyacı olan şəxslərə minik avtomobilləri təqdim olunub



***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, dekabrın 1-də sağlamlıq imkanları məhdud üç Azərbaycan Vətən Müharibəsi iştirakçısına və hərbi xidmət vəzifələrinin icrası zamanı sağlamlıq imkanları məhdudlaşmış bir nəfərə "NAZ-Lifan-320" markalı minik avtomobilləri təqdim olunub.***

Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov çıxış edərək deyib ki, muxtar respublikada xüsusi qayğıya ehtiyacı olanlara sosial xidmətlərin göstərilməsi və reabilitasiyası diqqət mərkəzindədir. Bu günədək muxtar respublikada müvafiq kateqoriyadan olan sağlamlıq imkanları məhdud 456 şəxsə minik avtomobili verilib, 211 müharibə əlili və şəhid ailəsi mənzil və fərdi yaşayış evləri ilə təmin olunub. Bu ilin ötən dövründə isə sağlamlıq imkanları məhdud şəxslər müxtəlif sanatoriya və pansionatlara göndərişlərlə təmin olunub, bərpa mərkəzlərində müalicələri təşkil edilib. Muxtar respublikada məhdud fiziki imkanlı şəxslərin təhsili, məşğulluğu və yaradıcılıq potensiallarının aşkar edilməsi də diqqət mərkəzindədir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov deyib: Bu gün Azərbaycan torpaqlarının qorunması zamanı sağlamlığını itirmiş şəxslərə dövlət qayğısı ilə minik avtomobilləri verilir. Avtomobillə təmin olunan şəxslərin xidməti vəzifələrini layiqincə yerinə yetirməsi Vətənə xidmətin nümunəsidir. Eyni zamanda Vətən qarşısında xidməti olanlara avtomobillərin təqdim edilməsi dövlətimizin bu kateqoriyadan olan insanlara göstərdiyi qayğının daha bir ifadəsidir. Vətənə layiqincə xidmət etmək və bu xidmətin dövlət tərəfindən qiymətləndirilməsi isə Vətənin bütövlüyünə, gələcəyinə xidmət edir. Bu gün xidməti borclarını layiqincə yerinə yetirən insanlara avtomobillərin təqdim olunması həm də onların hərəkət imkanlarını yaxşılaşdıracaqdır.

Ali Məclisin Sədri avtomobillə təmin olunanları təbrik edib, Vətən qarşısında xidməti vəzifələrini layiqincə yerinə yetirdiklərinə görə onlara təşəkkürünü bildirib.

Sonra Ali Məclisin Sədri avtomobillərin açarlarını təqdim edib.

Hərbi xidmət vəzifələrinin icrası zamanı sağlamlıq imkanları məhdudlaşmış Röya Cəfərov çıxış edərək deyib: Muxtar respublikada insanların həyat səviyyəsi günbəgün yaxşılaşır. Bunu gündəlik həyatımızda hər an hiss edirik. Vətənimizin azadlığı və ərazi bütövlüyünün qorunması zamanı sağlamlığını itirənlərə, şəhid ailələrinə dövlətimiz tərəfindən yüksək diqqət və qayğı göstərilir. Müharibə əlilləri, şəhid ailələri mənzillə təmin olunur, onlara minik avtomobilləri verilir, müalicələrinə köməklik göstərilir. Minik avtomobili ilə təmin olunacağımı eşidəndə çox sevindim. Bu qayğıya görə bütün müharibə iştirakçıları adından minnətdarlığımı bildirirəm.

# Milli Məclisin iclasında 2018-ci ilin dövlət büdcəsi təsdiqlənib

***Dekabrın 1-də Milli Məclisin payız sessiyasında növbəti iclası keçirildi. AZƏRTACxəbər verir ki, iclası açan Milli Məclisin sədri Oqtay Əsədov "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununda dəyişikliklər edilməsi barədə sənəd haqqında məlumat vermək üçün hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynliyə söz verib. Komitə sədri bildirib ki, Qanuna təklif olunan dəyişikliklər normativ hüquqi aktların hazırlanmasında səmərəliliyin artırılması, vaxt itkisinə yol verilməməsi və çevikliyin təmin edilməsi məqsədilə təklif olunur. Deputatlar layihəni səsə qoyaraq təsdiqləyiblər.***

Sonra "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" qanun layihəsi üçüncü oxunuşda müzakirəyə çıxarılıb. Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli ikinci oxunuşdan sonra layihə üzərində aparılmış işlər barədə məlumat verib. Bildirib ki, bu qanun ölkə əhalisinin sağlamlığının qorunması, sağlam həyat tərzinin təbliği, uşaqların və gənclərin sağlam böyüməsi və inkişafı, tütün tüstüsünün ətraf mühitə ziyanlı təsirlərinin azaldılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Çıxış edən deputatlar qanun layihəsini yüksək qiymətləndiriblər. Müzakirələrdən sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Milli Məclis sədrinin birinci müavini, müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərovun, iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadənin təqdimatlarından sonra deputatlar "Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında strateji tərəfdaşlıq və iqtisadi əməkdaşlığa dair yol xəritəsi haqqında" Birgə Bəyannaməni, 2005-ci il martın 30-da Varşava şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Polşa Respublikası Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Sazişdə dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Hökuməti və Polşa Respublikası Hökuməti arasında" Protokolu, 1999-cu il 28 sentyabr tarixində Vaşinqton şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınması və müdafiə sahəsində tədbirlər haqqında Saziş"in növbəti yeddi il müddətinə uzadılması barədə Sazişi, "Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq İnstitutunun təsis edilməsi haqqında", həmçinin "Asiya və Sakit Okean Regionunda Transsərhəd Kağızsız Ticarətin Sadələşdirilməsi üzrə Çərçivə Sazişi"nə qoşulmaq haqqında qanun layihələrini təsdiqləyiblər.

Sonra beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov "Azərbaycan Respublikası Hökuməti ilə Yaponiya Hökuməti arasında diplomatik pasportlara malik olan vətəndaşların viza tələbindən azad olunması haqqında" Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Yaponiyanın Azərbaycan Respublikasındakı səfirliyi arasında" Notalar Mübadiləsini və "Azərbaycan Respublikası Hökuməti ilə Boliviya Çoxmillətli Dövlətinin Hökuməti arasında diplomatik və rəsmi/xidməti pasportlara malik şəxslərin viza tələbindən azad edilməsi haqqında" Sazişi, həmçinin "Azərbaycan Respublikası ilə Latviya Respublikası arasında strateji tərəfdaşlığın yaradılması haqqında" Birgə Bəyannaməni təqdim edib. Bildirilib ki,



bu beynəlxalq sənədlər ölkəmizin xarici əlaqələrinin daha da inkişafına xidmət edir. Sonra hər üç sənəd səsə qoyularaq təsdiqlənib.

Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə bildirib ki, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə təklif olunan dəyişikliyə görə, Azərbaycanın xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və konsulluqlarında ticarət nümayəndələri və onların aparatlarının işçilərinin xarici ölkədə aldığı əməkhaqqı gəlir vergisindən azad olunacaq.

"Dövlət borcu haqqında" Qanuna təklif olunan dəyişiklik isə uyğunlaşdırma xarakteri daşıyır. Hər iki sənədə təklif olunan dəyişiklik təsdiqləndikdən sonra deputatlar İnzibati Xətalar Məcəlləsinə dəyişikliklər edilməsi haqqında məsələni müzakirə ediblər. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, bu məsələ "Kütləvi informasiya vasitələri haqqında" və "Telekommunikasiya haqqında" qanunlara dəyişikliklər edilməsi barədə məsələlərlə birlikdə daxil olub və bir-biri ilə sıx bağlıdır. Belə ki, göstərilən iki qanunda nəzərdə tutulmuş internet telekommunikasiya xidməti göstərən operatorlar və provayderlər tərəfindən uçota durma qaydalarının pozulmasına, həmçinin yayılması qadağan edilən informasiyanın yerləşdirilməsinə görə İnzibati Xətalar Məcəlləsində cərimə nəzərdə tutulur. Bu iki qanun layihəsinə təklif olunan dəyişikliklər barədə danışan mədəniyyət komitəsinin sədri Rafael Hüseynov da dəyişiklikləri yüksək qiymətləndirib.

Dəyişikliklər səsə qoyularaq qəbul edilib. İclasda İnzibati Xətalar və Miqrasiya məcəllələrinə də müvafiq dəyişikliklər edilib. Deputatlar "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" qanun layihəsini də birinci oxunuşda müzakirə ediblər.

Milli Məclis sədrinin birinci müavini, müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov bildirib ki, "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Qanun 1991-ci ildə qəbul olunub və hazırda qüvvədədir. Birinci oxunuşda müzakirəyə təqdim olunan "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" yeni qanun layihəsinin qəbul olunması zərurəti isə ölkəmizdə keçirilmiş sonuncu referendum nəticəsində Konstitusiyaya edilmiş dəyişikliklərdən sonra yaranıb. Yeni qanun silahlı qüvvələrimizin hüquqi bazasının möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Qanun layihəsi hazırlanarkən Konstitusiyamız, Hərbi Doktrina və Milli Təhlükəsizlik Konsepsiyası əsas götürülüb. Bu yeni qanun qüvvəyə mindiyi gündən əvvəlki qanun qüvvədən düşəcək. Çıxış edən deputatlar qanun layihəsinin mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıblar. Sonra qanun layihəsi birinci oxunuşda səsə qoyularaq qəbul edilib.

Fasilədən sonra "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi müzakirəyə çıxarılıb.

Milli Məclisin sədri Oqtay Əsədov bildirib ki, büdcə layihəsi parlamentin plenar iclasında üç gün müzakirə olunduqdan sonra səslədirilən təkliflərə baxılması üçün hökumətə 10 gün vaxt verilmişdi. Bu gün büdcə layihəsi yenidən müzakirəyə təqdim olunur.

Sonra çıxış edən maliyyə naziri Samir Şərifov bildirib ki, Prezidentin tövsiyəsinə əsasən, gələn il üçün Azərbaycanda ehtiyac meyarı 14 manat və ya 12 faiz artırılaraq 130 manata çatdırılır.

2018-ci ilin dövlət büdcəsinin müzakirəsi zamanı deputatların səsləndirdiyi təkliflər hökumət tərəfindən ilkin təhlil edilib. Təkliflərə uyğun olaraq bəzi tədbirlər üzrə xərclər üçün tələb olunan maliyyə təminatını yaratmaq məsələsi nəzərdən keçirilib və bəzi istiqamətlər üzrə xərclər artırılıb.

Prezident İlham Əliyevin təşəbbüsü ilə eşitmə və ürək qüsurlu uşaqların müalicəsi üçün 4 milyon manat vəsait ayrılacaq. Bu məsələlər Maliyyə Nazirliyi və Səhiyyə Nazirliyinin birgə iştirakı ilə dəqiqləşdiriləcək. Növbəti ildən dövlət büdcəsi hesabına eşitmə və ürək qüsurlu uşaqlar müalicə ediləcək. 2018-ci ilin dövlət büdcəsinin layihəsində siyasi partiyalar üçün nəzərdə tutulan maliyyə yardımının məbləğinin 20 faiz, yəni, 500 min manat artırılaraq 3,1 milyon manata, qeyri-hökumət təşkilatlarına nəzərdə tutulan maliyyə yardımının məbləğinin 600 min manat və yaxud 2017-ci illə müqayisədə 12,1 faiz artırılaraq 5,6 milyon manata çatdırılması təmin olunacaq.

Qeyd olunub ki, bir sıra təşkilatların büdcələri üzrə xərclərin artırılması üçün, o cümlədən Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin bədii heyətinə aid olan işçilərin aylıq vəzifə maaşlarına Prezident əlavəsinin tətbiqi ilə əlaqədar, Energetika Nazirliyinin və Polşada açılacaq ticarət nümayəndəliyinin bəzi xərclərinin tənzimlənməsi üçün əlavə vəsait ayrılacaq.

Təhsil bölməsində Təhsil Nazirliyinin sair xərclər maddəsində nəzərdə tutulmuş vəsaitin 46 milyon manatının təyinatı dəyişdirilərək tələbələrə verilən təqaüdlər xərc maddəsinə yönəldiləcək. Beləliklə, 2018-ci il üçün həmin maddə üçün xərclər 70 milyon manata çatdırılacaq ki, bu da cari il ilə müqayisədə 11,3 milyon manat və ya 19,3 faiz çoxdur. Hesab edirik ki, bu da 2018-ci ilin büdcə layihəsinin müzakirəsi zamanı təqaüdlərlə bağlı yaranmış anlaşılmazlıqları tam aradan qaldırır.

Ediləcək dəyişikliklər nəticəsində dövlət büdcəsinin xərcləri ilkin proqnoza nisbətən 141,3 milyon manat artırılaraq 21 milyard 47 milyon manata çatdırılacaq. Bununla əlaqədar dövlət büdcəsinin kəsiri 141,3 milyon manat artırılır və 920 milyon manata çatdırılır. Bu da cari illə müqayisədə 255 milyon manat azdır.

Müzakirələrdən sonra "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi və büdcə zərfinə daxil olan "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2018-ci il büdcəsi haqqında", "İşsizlikdən sığorta fondunun 2018-ci il dövlət büdcəsi haqqında", "Azərbaycan Respublikasının 2018-ci il üçün yaşayış minimumu haqqında", "Azərbaycan Respublikasının 2018-ci il üçün ehtiyac meyarının həddi haqqında", Azərbaycan Respublikası Milli Məclisinin və Hesablama Palatasının 2018-ci il üçün xərclər smetası haqqında qanun layihələri səsə qoyularaq qəbul edilib.

Sonra deputatlar "Pasportlar haqqında" , "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında", "Dövlət rüsumu haqqında" qanun layihələrinə və İnzibati Xətalar Məcəlləsinə təklif olunan dəyişiklikləri müzakirə ediblər. Milli Məclisin hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, bu dörd qanuna təklif olunan dəyişikliklər bir zərfdə daxil olub. Dəyişikliyə görə, Azərbaycan vətəndaşlarına verilmiş ümumvətəndaş pasportlarının və şəxsiyyət vəsiqəsinin itirilməsi və korlanması ilə əlaqədar yenidən verilməsi zamanı rüsumlar ümumi qaydadan yüksək olacaq. Bu dəyişikliklər də səsə qoyularaq təsdiqlənib.

İclasın sonunda deputatlar Cinayət Prosessual və Cəzaların İcrası məcəllələrinə də dəyişikliklər ediblər. Bildirilib ki, bu dəyişikliklər Prezident İlham Əliyevin "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 2017-ci il 10 fevral tarixli Sərəncamının icrası ilə əlaqədardır.

Çıxış edən Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov, deputatlar Elmira Axundova, Qüdrət Həsənquliyev, Zahid Oruc, Bəxtiyar Əliyev, Vüsal Hüseynov, Səməd Seyidov, Siyavuş Novruzov, Elşən Musayev, Çingiz Qənizadə və Rüfət Quliyev təklif olunan dəyişiklikləri Azərbaycanda humanist dövlət siyasətinin təzahürü kimi qiymətləndiriblər. Müzakirələrdən sonra hər iki məcəlləyə təklif olunan dəyişikliklər səsə qoyularaq qəbul edilib.

Bununla da Milli Məclisin iclası başa çatıb.

# 2018-ci ilin dövlət büdcəsi milli və dövlətçilik maraqlarını tam əhatə edir

*Məlum olduğu kimi, Milli Məclisdə 2018-ci ilin dövlət büdcəsi layihəsinin müzakirəsi olub. Müzakirə zamanı qeyd olunub ki, büdcə zərfinə daxil olan sənədlər ölkə həyatında müşahidə olunan müsbət dinamik dəyişiklikləri əks etdirir. Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi, eləcə də, biznes mühitinin yaxşılaşdırılması, infrastrukturun inkişaf etdirilməsi, maliyyə bazarının təkmilləşdirilməsi və digər sahələrdə həyata keçirilən tədbirlər iqtisadiyyatımızın rəqabət qabiliyyətinin artmasına gətirib çıxarıb.*

Sözügedən məsələ ilə bağlı "Səs" qəzetinə açıqlama verən millət vəkilləri bildiriblər ki, 2018-ci ilin dövlət büdcəsi iqtisadiyyata investisiya qoyuluşunun daha da artırılmasına, kənd təsərrüfatının stimullaşdırılmasına, milli təhlükəsizliyin və müdafiə qabiliyyətinin gücləndirilməsinə imkan yaradacaq.

### İsa Həbibbəyli : "Bu real büdcədir və Azərbaycanın hərtərəfli inkişafına müsbət təsir göstərəcəkdir"

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Milli Məclisin Elm və Təhsil Komitəsinin sədri İsa Həbibbəyli bildirib ki, 2018-ci ilin dövlət büdcəsi iqtisadi proqnozların optimal reallaşdırılması layihəsidir: "Milli Məclisin müzakirə edib təsdiq etdiyi dövlət büdcəsində bu il, ilk dəfə olaraq, elmə ayrılan vəsaitlərin həcmi artmışdır. Bunun əsas səbəbi ölkəmizin Prezidenti İlham Əliyevin müstəqil Azərbaycan Respublikasında cəmiyyət quruculuğunun bütün sahələrində elm faktorunun daha geniş yer tutması ilə əlaqədardır. Prezident İlham Əliyev AMEA-nın 70 illik yubileyindəki proqram xarakterli nitqində Azərbaycan alimlərinin, ümumiyyətlə, akademik elmin cəmiyyətin qurulmasında daha fəal iştirak etməsi vəzifəsini elm adamları qarşısında mərkəzi bir tapşırıq kimi qoymuşdur. 2018-ci il dövlət büdcəsindən elm sahəsinə bu il nəzərə çarpacaq dərəcədə vəsaitin ayrılması, məhz ölkə başçısı İlham Əliyevin elmə və təhsilə olan diqqətinin göstəricisidir".




Komitə sədri bildirib ki, xüsusən, büdcə zərflərindəki təhlilərdə ayrılan vəsait təhsildəki islahatların həyata keçirilməsinə yönəlib: "İlk dəfə olaraq, bu il ali məktəb konsultasiyalarının inkişaf etdirilməsinə ayrılan vəsait bunu sübut edir. Bu isə, ali məktəblərin dünya standartları səviyyəsinə qaldırılmasına gətirib çıxaracaq. Təhsil sahəsinə ayrılan vəsait məktəbəqədər və peşə təhsilinin daha da yüksəldilməsini və ölkəmizdə olan real elm sektorunun inkişafını təmin edəcəkdir. Ulu Öndərimiz Heydər Əliyevin dediyi kimi, təhsil millətin gələcəyidir. Belə ki, bu sahəyə ayrılan vəsaitin 11,3 dəfə artması, məhz təhsilə və elm siyasətinə dövlətin diqqət və qayğısının göstəricisidir. Artıq akademiyada texnoparkın yaradılması və elmi mühitdə innovasiya və sahibkarlıq xarakterli işlərin miqyasının genişlənməsi ilə əlaqədardır. Bu artırılan vəsaitlər alimlərin innovativ təşəbbüslərinin qüvvətlənməsinə, elmdə sahibkarlıq fəaliyyətinin daha da artmasına və texnoparkların inkişaf etməsinə sərf olunacaqdır. Məlumat üçün bildirmək istərdim ki, dövlət başçısının Sərəncamına əsasən, AMEA-da yaradılmış texnologiya parkı qısa müddətdə sürətlə inkişaf etməkdədir".

İ.Həbibbəyli, onu da vurğulayıb ki, bu real büdcədir və Azərbaycanın hərtərəfli inkişafına müsbət təsir göstərəcəkdir: "İctimaiyyətin rəyi nəzərə alınaraq, qanun layihəsindin 7,6 maddəsi tam şəkildə bərpa edilib. Maddəyə əsasən, məktəbəqədər təhsilin məzmunu nəticəyönümlük, şəxsiyyətyönümlük, uşaqyönümlük, inkişafyönümlük, tələbəyönümlük, varislik, interaktivlik, millilik və dünyəvilik prinsipləri əsasında müəyyən edilir".

### Mahir Abbaszadə: "Dövlət büdcəsi sosialyönümlüdür"

Millət vəkili Mahir Abbaszadə



Milli Məclisdə müzakirə olunan 2018-ci ilin dövlət büdcəsi zərfinə daxil olan sənədlərin ölkə həyatında müşahidə olunan müsbət dinamik dəyişiklikləri əks etdirəcəyini bildirib. Onun sözlərinə görə, Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi, eləcə də, biznes mühitinin yaxşılaşdırılması, infrastrukturun inkişaf etdirilməsi, maliyyə bazarının təkmilləşdirilməsi və digər sahələrdə həyata keçirilən tədbirlər iqtisadiyyatımızın rəqabət qabiliyyətinin artmasına gətirib çıxarıb: "2018-ci ilin dövlət büdcəsi iqtisadiyyata investisiya qoyuluşunun daha da artırılmasına, kənd təsərrüfatının stimullaşdırılmasına, milli təhlükəsizliyin və müdafiə qabiliyyətinin gücləndirilməsinə imkan yaradacaq. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasi kurs çərçivəsində sosial məsələlərin həlli, vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi hər zaman diqqət mərkəzindədir. Eyni zamanda, insanların yaşayış səviyyəsinin yaxşılaşdırılması, maaşların, pensiyaların artırılması, yeni sosial obyektlərin tikintisi dövlətimizin sosial siyasətinin prioritet istiqamətlərindəndir. Bu ilin əvvəlindən maaş və pensiyaların artırılması da bunu sübut edir. İqtisadi inkişafın yeni mərhələsi nəticəsində əldə olunan nəticələr dövlətin sosialyönümlü siyasətinin daha da gücləndirilməsinə imkan verəcək".

Deputat onu da bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin düşünülmüş iqtisadi inkişaf strategiyası son illər dünya maliyyə-iqtisadi böhranı ilə əlaqədar ölkəmizdə makroiqtisadi sabitlik üçün yaranan təhlükələrin qarşısını almağa imkan verib. 2017-ci il ölkəmizin tarixində əlamətdar hadisələrlə yadda qalacaq. Bu hadisələrdən biri iki ay öncə "Azəri-Çıraq-Günəşli" neft və qaz yataqları blokunun işlənilməsinə dair Sazişin müddətinin 2050-ci ilədək uzadılması, digəri isə Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı olub. Həmin layihələr Azərbaycanın gələcək siyasi və iqtisadi dayanıqlılığı üçün möhkəm zəmin yaradıb. Əhalinin yüksək rifahının təmin olunmasına yönəldilmiş konkret tədbirlər sistemi olan sosial siyasət, mürəkkəb struktura malik olmaqla, çoxcəhətli prosesdir. Bu siyasətin hər hansı bir göstəricisini əsas götürərək, bütövlükdə, cəmiyyətin inkişafı barədə fikir yürütmək olar. Hər bir cəmiyyət öz inkişafına uyğun olaraq, sosial siyasəti formalaşdırır və bu siyasətin həyata keçirilməsi üçün zəruri şəraitin yaradılmasını təmin edir. Baş verən ictimai-iqtisadi və digər inkişaf reallıqları sosial siyasətin məzmununun və mahiyyətinin zənginləşməsində böyük əhəmiyyət kəsb edir".

**Rəfiqə HÜSEYNOVA**

# Cornelius Zimmerman: "Azərbaycanın Əfqanıstana etdiyi yardımlar yüksək qiymətləndirilir"



Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov "Asiyanın Qəlbi-İstanbul Prosesi" çərçivəsində Bakıda keçirilən 7-ci nazirlər konfransında iştirak etmək üçün ölkəmizdə səfərdə olan NATO-nun Əfqanıstan üzrə ali mülki nümayəndəsi Cornelius Zimmerman ilə görüşüb.

Görüşdə Azərbaycanın ev sahibliyi etdiyi "Asiyanın Qəlbi-İstanbul Prosesi" çərçivəsində 7-ci nazirlər konfransının işi və sözügedən platformanın oynadığı mühüm rol təqdir edilib.

Elmar Məmmədyarov ölkəmizin NATO-nun Qətiyyətli Dəstək Missiyasında iştirakı, eləcə də Əfqanıstan nümayəndələrinin idarəçilik, silahlı qüvvələr üzərində mülki nəzarət, mina təmizləmə, hüquq-mühafizə, hərbi sahədə qabiliyyətlərinin artırılması məqsədilə həyata keçirdiyi təlim və kurslardan söz açıb və bu dəstəyin davam etdiriləcəyini bildirib.

Nazir, həmçinin Azərbaycan Prezidenti İlham Əliyevin keçən həftə Brüsseldə NATO-nun baş katibi Yens Stoltenberq ilə görüşündə qeyd etdiyi kimi Əfqanıstanda sülh, təhlükəsizlik və sabitliyə daha çox töhfə vermək üçün orada xidmət edən hərbi qulluqçuların sayının artırılacağını diqqətə çatdırıb. Cornelius Zimmerman Əfqanıstanın Bərpası Xüsusi Fonduna və Əfqanıstan Milli Ordusu üzrə Etimad Fonduna Azərbaycan hökumətinin etdiyi yardımları yüksək qiymətləndirib.

# Naxçıvanda "Heydər Əliyev dini həmrəyliyin yaradıcısıdır" mövzusunda konfrans keçiriləcək

Dekabrın 6-da Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) birgə təşkilatçılığı ilə "Heydər Əliyev dini həmrəyliyin yaradıcısıdır" mövzusunda konfrans keçiriləcək.



QMİ-nin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, konfransın məqsədi Prezident İlham Əliyev tərəfindən istər "Multikulturalizm", istərsə də "İslam Həmrəyliyi" illərinin elan olunması kimi tarixi əhəmiyyətli qərarların bünövrəsində duran ulu öndər Heydər Əliyevin uca mənəviyyat yolunun, dini həmrəylik ənənəsinin yad edilməsidir. Naxçıvan konfransının "İslam Həmrəyliyi İli" çərçivəsində keçirilmiş tədbirlər silsiləsində özəl yeri onun Ulu Öndərin anım günü, qarşıdan gələn 95 illik yubileyi ərəfəsində təşkil olunması, habelə Naxçıvanın 2018-ci ildə İslam mədəniyyətinin paytaxtı statusu alması ilə əlaqədardır. Konfransda QMİ-nin sədri şeyxülislam Allahşükür Paşazadə ilə bərabər, ənənəvi dini konfessiyaların başçıları - Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının Arxiyepiskopu Aleksandr İşein, Dağ yəhudiləri icmasının başçısı Milix Yevdayev və Bakıdakı Katolik icmasının ordinarisi Vladimir Fekete, Milli Məclisin deputatları, tanınmış elm xadimləri də iştirak edəcəklər.

# “Ermənistan buna layiqdir”

## Arzu Nağıyev: “Ermənistana qarşı cəza olmasa da, müəyyən sanksiyaların tətbiqi mümkündür”

**- Arzu müəllim, son vaxtlar Rusiyanın müxtəlif televiziyalarında, eləcə də, mətbu orqanlarında Ermənistanı ittiham və təhqir edən verilişlər yayımlanır və məqalələr dərc olunur. Bunun birbaşa Kreml tərəfindən Ermənistana qarşı yönəldilən bir siyasət olduğunu demək olarmı?**

- Düşünürəm ki, bu tam şəkildə Rusiyanın Ermənistana qarşı olan siyasətidir. Təbii ki, vasitə kimi kütləvi informasiya vasitələrindən və televiziyalardan istifadə edilir. Bu da, son vaxtlar Ermənistanın ikili siyasət aparması ilə bağlıdır. Belə ki, son vaxtlar, Ermənistan Avrasiya İqtisadi İttifaqının üzvü olmasına və bir sıra hərbi və siyasi bloklarda təmsil edilmələrinə baxmayaraq, Avropaya və ümumiyyətlə, Qərbə yönəlməsi Rusiyanı razı sala bilməz. Buna görə də, Rusiya Ermənistana qarşı bir sıra tənqidi materiallarla çıxış edir. Yəni rəsmi olaraq,



Müsahibimiz politoloq Arzu Nağıyevdir

açıqlamalar yoxdur, lakin hiss olunur ki, gərginlik hökm sürür.

**- Rusiyanın NTV telekanalında yayımlanan verilişlərin birində Ermənistanın Şərq Tərəfdaşlığı Təşəbbüsü çərçivəsində Avropa İttifaqı ilə tərəfdaşlıq razılaşması imzalaması ərinə xəyanət edən əxlaqsız qadın kimi dəyərləndirilib. Ermənistanın Rusiyanın müxtəlif dairələri yanında inamını və etibarını itirməsini nə ilə izah etmək olar?**

- Bu, artıq nə qədər qeyri-etik bir formanın olduğunu göstərir. Düşünürəm ki, Ermənistan buna layiqdir. Çünki yuxarıda da qeyd edildiyi kimi, Rusiyanın iqtisadi və siyasi sanksiyalara məruz qaldığı bir vaxtda, maliyyə dəstəyi ala bilməyəndə, artıq Qərbə yönəlir. Erməni hakimiyyəti bilir ki, Avropa ondan öz siyasi məqsədləri üçün, daha doğrusu, Rusiyadan ayırmaq və bununla da, hətta Rusiya-NATO sərhədinin bu ölkə ərazisindən keçməsini tam şəkildə dərk edərək, Ermənistanı öz himayəsi altına almaq istəyir. Buna da, ancaq NTV telekanalında deyilən tərzdə qiymət vermək olar...

**- Ermənistanın Avropa İttifaqı ilə yaxınlaşması və bunun fonunda Ermənistanda prezident V.Putinə qarşı ittihamların irəli sürülməsi nəticə etibarı ilə Rusiyanın Ermənistanı cəzalandırmasına gətirib çıxara bilərmi?**

- Ermənistanın Avropa İttifaqı ilə yaxınlaşması iqtisadi bəhanələrlə bağlı olsa da, əslində, siyasi məqsədlər güdür. Məlumdur ki, ictimai-siyasi durum Ermənistanda həddən artıq ağırlaşıb və vətəndaşlar, artıq dərk edirlər ki, bunun günahkarı, ilk növbədə, Sarkisyan və onun cinayətkar komandasıdır. Bundan başqa, iqtisadiyyatın çox hissəsi Rusiyanın inhisarında olmasına baxmayaraq, sosial vəziyyət və rifah çox acınacaqlı hala düşüb. Rusiya öz mənafeyi naminə Ermənistanı silahlandırır, məramı və məqsədi məlum olmayan müharibəni daha da alovlandırır. Sarkisyan isə, nə vaxsta buna görə cavab verəcəyindən çəkinərək günahkarın məhz Rusiya olduğunu dolayı şəkildə vətəndaşlarına çatdırır və Qərblə danışıqlara gedir. Bunu da Rusiyada anlayırlar və normal qarşılamırlar. Ermənistana qarşı cəza olmasa da, müəyyən sanksiyaların tətbiqi mümkündür.

***GÜLYANƏ***

# Mübariz Əhmədoğlu: “Ermənistan Gürcüstana təzyiqin yeni mərhələsinə start verdi”



“Yerevanda “Xristian və digər dini qruplara qarşı nifrət əsasında cinayətlərin qarşısının alınması və əleyhinə tədbirlərin hazırlanması: ATƏT və onun hüdudlarından kənarda olan perspektivləri” mövzusunda forumda E.Nalbandyan məruzəsini bir neçə tezis üzərində qurmuşdu”. Bu fikirləri Siyasi Texnologiyalar və İnnovasiyalar Mərkəzinin rəhbəri Mübariz Əhmədoğlu deyib. O, qeyd edib ki, 1990-2000-ci illərdə çoxsaylı erməni kilsəsi, monastır və qəbiristanlığı məhv edilib, mənimsənilib və o yerlərdən yerli erməni əhali qovulub, münaqişələrdə din amilindən istifadə edilir, bəzi ATƏT üzvlərində özlərini tolerantlıq adacığı elan etmək dəbə çevrilib və “İŞİD”-in tərkibinə qoşulmuş bəzi terrorçular Yaxın Şərqdə Ermənistanın qonşuluğunda olan öz ölkələrinə qayıdırlar. Bunlar təkcə öz ölkələrində deyil, bütövlükdə, regionda destiblizəedici faktor ola bilərdi. STİM rəhbərinə görə, E.Nalbandyanın məruzəsini diqqətlə oxuduqda, bunun Gürcüstana qarşı yönəldiyini aşkar şəkildə başa düşmək olar: “Adı çəkilən dövrdə ermənilər təkcə Azərbaycandan “qovulmayıblar”, Gürcüstan ərazisindən də “qovulublar”. Azərbaycan ərazisindən “qovulan” ermənilərin “yerli ermənilər” olmadığı dəqiq bəllidir. Daha bir arqument konfransın işinin Azərbaycana aid olmadığını göstərir: 1987-cil il dekabrın 24-də Ermənistan SSR-in ərazisindən 240 min azərbaycanlının qovulması, simvolik də olsa, yada salınardı. Ermənistanın Gürcüstana qarşı kilsə, monastır və qəbiristanlıq davası indinin özündə də davam edir. Gürcüstan özünü tolerant dövlət elan edib. 2017-ci il ərzində prezident və baş nazir bir neçə dəfə tolerantlıq məsələsini qaldırıblar. Azərbaycanda isə tolerantlıq termini həmişə multikulturalizm termini ilə yanaşı işlədilir”. “Ermənistanın qonşuluğunda olan dövlətə “İŞİD” terrorçularının qayıtması mövzusu da Azərbaycandan daha çox Gürcüstana aiddir” deyə qeyd edən politoloq hesab edir ki, E.Naldandyanın ATƏT adından forum keçirdiyi vaxtdan cəmi bir neçə gün sonra Tbilisidə bütün beynəlxalq mətbuatın diqqətini cəlb edən anti-"İŞİD" antiterror aksiyası reallaşdırdı: “Gürcüstan vətəndaşı olan 2 şəxs “İŞİD”-in rəhbərliyində təmsil olunublar. Beləliklə, E.Nalbandyanın hədəf olaraq Gürcüstanı seçməsi dəqiq bəllidir. Amma E.Nalbandyan tək deyil. Bir az öncə, Ermənistan parlamentinin beynəlxalq əlaqələr komissiyasının sədri A.Aşotyan Aİ ilə Ermənistan arasında “Çərçivə sazişi”nin imzalanmasının Ermənistan üçün əhəmiyyətini izah edərkən, Gürcüstanın Avropa imicini monopoliyaya almasına son qoyulacağını bildirdi. Başqa sözlə, Gürcüstanın müstəqil və Avroatlantik məkan istiqamətindəki siyasəti rəsmi Yerevanı narahat edir və ya bəlkə də bundan Rusiyanı cəlb etmək üçün istifadə edir: “Ermənistan NATO ilə əlaqələrini intensivləşdirən Gürcüstana qarşı təzyiqləri artırır. NATO-Gürcüstan münasibətlərinin yeni mərhələsi RF-i narahat edir. Əvəzində, Rusiya Dağlıq Qarabağ tənzimlənməsində başladığı aktiv siyasətinə pauza verir. Hər halda, həmin konfransda Gürcüstanın iştirak etməməsi, RF-nin xarici işlər nazirinin birinci müavini səviyyəsində təmsil olunması da çox şey deyir”.

***Rövşən RƏSULOV***



## Bədbəxtçiliyin ən yüksək piki

**RƏFİQƏ**

***Qəribə və bədbəxt məxluqdur bu müxalifət. Qəribəlikləri çoxdur. Ancaq seçkiərəfəsi yenə də sosial şəbəkələrdə “millət”, “dövlət” deyib bu milləti və dövləti satmaqla məşğul olan Ə.Kərimli, İ.Qəmbər, A.Hacılı, C.Həsənli və ... bu kimi zadların ittihamlarına cavabsız qalmaya bilmirsən. O zaman başlayırlar bizi qınamağa. Nəyə görə? Sən demə, xalqın partiyası olan YAP-ın mövqeini müdafiə etmək, millətə və dövlətə xidmət edən siyasi təşkilatın yürütdüyü siyasəti əqidəcə, amalca dəstəkləmək “günahıymış”. Hətta əllərinə düşsən belə “İŞİD” “qolovorezləri” kimi başını belə kəsərlər.***

İnanın ki, belədir! Xüsusilə də, bu fikirlər Ermənistanın hərbi hissələrinin təmas xəttində Azərbaycanın işğal altında olan ərazilərində yerləşən Azərbaycan Silahlı Qüvvələrinin bütün cəbhəboyu mövqelərini iriçaplı silahlar, minaatanlar, qumbaraatan və artilleriya qurğularından intensiv atəşə tutaraq, qoşunların təmas xəttində növbəti təxribatların uğurla qarşısının alındığı bir zamanda Ə.Kərimli, İ.Qəmbər, C.Həsənli ... kimi məxluqların bu həqiqəti başa düşərək dəstəkləməsi, demək, dövlətə “satılmaları” kimi ifadə olunur. Məncə, bu dövlətin maraqlarını qoruyan bir partiyaya xidmət göstərmək erməniyə nökərçilik etməkdən çox qeyrətli bir işdir!

Dünənə qədər AXCP sədri Ə.Kərimlinin hansısa tulası, bu gün də belə “suçok”lar var, o cümlədən, “Milli Şura”nın koordinasiya mərkəzinin rəhbəri Eldəniz Quliyevi “ziyalı” hesab etdiyini və bununla fəxr duyduğunu yazır. Bir adama deyərlər ki, əşşi, a binəva, axı bu “ziyalı” adlandırdığın E.Quliyev separatçı qurumda çalışan vətən xaini Əlikram Hümbətovun dəstəkçisi olub!!! “Talış-Muğan Respublikası” adlı bir qondarma “respublika” elan edilərkən, onun “himni” səsləndirilərkən, həmin bu “ziyalı” adlandırılan Eldəniz ayağa qalxıb!!! İndi Ə.Kərimlinin tulaları bu “adamı” az qala “milli qəhrəman” elan edərək, “tərifə” mindirməyə çalışmaq istədilər. Bir də, nə etsinlər, AXCP-çidir daaa, real satqın və xəyanətkardır! Bu satqın, xəyanətkar Ə.Kərimlinin vaxtı ilə ruporuna çevrilən “Azadlıq” qəzeti mətbuatın maarifləndirmə funksiyasını bir kənara qoyaraq, açıq şəkildə siyasi ədavəti qızışdırmaq yolu seçmişdi.

Bütün bunları elə-belə yazmıram. Yazıram ona görə ki, bunların hər hansı bir ipiqırıq partiya mənsubları mitinqdə dava salıb, xuliqanlıq edir və həmin an “Azadlıq” qəzeti nə hoqqabazlıqlar var, onlardan “ustalıqla” çıxarırdı, indi isə sosial şəbəkələrə xoda düşüb. Hələ bu harasıdır, AXCP mitinqlərə çıxmaq üçün çağırışlara başlayacağını da tələb edirdi. İndi də bunlar bir ipiqırığa görə yürüş keçirmək fikrinə düşsələr və gül kimi sakitliyi, sabitliyi pozmağa cəhd etsələr, kimsə “gözün üstə qaşın var” deməsin. İndi əziz oxucu, daha nə deyim, gördünüz ki, YAP-a, dövlətə və millətə qarşı xəyanət etmək çox asan bir işdir bu yazıqlar üçün.

# Noyabr ayında 2674 Yaşıl Kart müqaviləsi bağlanılıb

***2017-ci ilin noyabr ayı ərzində Yaşıl Kart sistemi çərçivəsində fəaliyyət göstərmək hüququ olan sığortaçılar tərəfindən 2674 Yaşıl Kart beynəlxalq sığorta müqaviləsi bağlanılıb. İcbari Sığorta Bürosundan (İSB) AZƏRTAC-a verilən məlumata görə, bunlardan 1352 müqavilə Türkiyə və İran İslam Respublikasına, 1278 müqavilə Rusiya, Moldova və Ukraynaya, 44 müqavilə isə Yaşıl Kart sisteminə daxil olan bütün ölkələrə (Belarus və İsrail istisna olmaqla) səfər edən avtonəqliyyat vasitələri ilə bağlı olub.***



Hesabat dövründə beynəlxalq sığorta müqavilələri üzrə sığorta şirkətləri tərəfindən toplanmış sığorta haqları 184 240 manat təşkil edib. Yaşıl Kart müqavilələrinin 2063 minik, 309 yük, 281 qoşqu, 20 avtobus və 1 motosiklet kateqoriyası üzrə olan nəqliyyat vasitələri ilə bağlı olub. Hazırda Yaşıl Kart sığorta növü üzrə İcbari Sığorta Bürosunun iştirakçıları olan 13 sığorta şirkəti fəaliyyət göstərir.

# “Hərəyə bir ağac əkək” kampaniyası çərçivəsində Göyçayda 1000-dən artıq ağac əkilib



“Hərəyə bir ağac əkək” kampaniyası çərçivəsində Göyçay rayonunda ağacəkmə kampaniyası keçirilib. Yeni Azərbaycan Partiyası Göyçay rayon təşkilatının təşkilatçılığı ilə Ağdaş Meşə Mühafizəsi və Bərpası müəssələrinin Göyçay rayonu üzrə MMBM -nin 2 hektar ərazisində 1000 ( min) xurma ağacı əkilib. Kampaniyada rayon təşkilatının fəalları və üzvləri yaxından iştirak ediblər.

# YAP İmişli rayon təşkilatı “Hərəyə bir ağac əkək” kampaniyası çərçivəsində yaşıllaşdırma işləri aparıb



Yeni Azərbaycan Partiyasının yaradılmasının 25-ci ildönümü ilə əlaqədar YAP İmişli rayon təşkilatının təşkilatçılı ilə “Hərəyə bir ağac əkək” kampaniyası çərçivəsində ağacəkmə aksiyası keçirilib. Aksiyada YAP İmişli rayon təşkilatının fəalları, eləcə də ictimaiyyət nümayəndələri və İmişli rayon İcra Hakimiyyətinin kollektivi yaxından iştirak edərək şam ağacları əkmişdir.

Şəhərin Olimpiya İdman komleksinin ətrafında və digər küçələrində yenidənqurma, abadlıq işləri həyata keçirilib. Abadlıq işləri sırasında yaşıllaşdırma işləri aparılıb. Xüsusilə gənclərin yüksək fəallıqla qoşulduğu bu aksiyada 2000 ədəd müxtəlif növ ağaclar əkilib.

## Fazil Məmmədov: Mənşə sertifikatları elektronlaşdırılacaq

Azərbaycan MDB məkanında mənşə sertifikatlarının elektronlaşdırılması ilə bağlı tədbirlər həyata keçirəcək. AZƏRTAC xəbər verir ki, bu fikirləri İqtisadiyyat Nazirliyi İstehlak Mallarının Ekspertizası Mərkəzinin direktoru Fazil Məmmədov dekabrın 1-də “Mənşə ekspertizalarının aparılması qaydaları və ixrac zamanı güzəştlərin tətbiqi” mövzusunda keçirilən təqdimatda deyib. F.Məmmədov qeyd edib ki, bu sahədə ilk növbədə Rusiya ilə əməkdaşlıq planlaşdırılır. Gələcəkdə isə Belarus, Qazaxıstan və digər ölkələrlə də bu sistemin qurulması nəzərdə tutulur: “Mənşə sertifikatlarının elektronlaşdırılmasında məqsəd yerli sahibkarların ixracyönümlü mallarının xaricə göndərilməsinə kömək göstərməkdir. Eyni zamanda, mənşə sənədlərinin verilməsi proseduru xeyli sadələşdirilib, sayı isə azaldılıb”.

# Samuxda “Hərəyə bir ağac əkək” kampaniyasına start verilib



Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi ilə bağlı ölkəmizin bütün bölgələrində silsilə tədbirlər keçirilir. Daha bir möhtəşəm tədbir olan “Hərəyə bir ağac əkək” kampaniyasına start verilib. Qeyd edək ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə layihələndirilən “Hərəyə bir ağac əkək” kampaniyası, Azərbaycanın hər bir bölgəsini əhatə etməklə, bütün yaşıllaşdırma mövsümü ərzində, yəni 2018-ci ilin mart ayına qədər davam edəcək. 700 mindən artıq ağac və bəzək bitkisinin əkilməsini nəzərdə tutan bu möhtəşəm kampaniyanın əsas vəzifəsi ölkədə meşəlik zolağının və yaşıllığın daha da genişləndirilməsi, ekoloji durumun daha da yaxşılaşdırılması məqsədinə xidmət etməklə, eyni zamanda, insanların səfərbər edilməsi və həmrəyliyinin yüksəldilməsinə töhfə vermiş olacaq. Bu kampaniya çərçivəsində növbəti möhtəşəm tədbir Samux rayonunda həyata keçirilib. Bu kampaniyada YAP Samux rayon təşkilatının idarə heyəti və şurasının üzvləri, qadınlar şurasının və gənclər birliyinin üzvləri, eləcə də, partiyanın çağırışına qoşulan idarə və müəssisələrin əməkdaşları yaxından iştirak ediblər. Aksiyada Lək-Əlibayramlı magistral avtomobil yolunun kənarına və sosial-ictimai obyektlərin həyətlərinə 1000 ədəddən artıq həmişəyaşıl və dekorativ ağac, çinar, Eldar şamı, gül kolu əkilib, quruyan ağaclar yeniləri ilə əvəz edilib və onların suvarılması təmin edilibdir. Ağacların inkişafı üçün gübrələr verilərək yeni su xətti çəkilibdir. Aksiya ilə bağlı YAP Samux rayon təşkilatının sədri Gündüz Bayramov bildirib ki, bu tədbir gələn ilin mart ayına kimi davam etdiriləcək.

**R.KAMALQIZI**

## Tbilisidə Azərbaycanın Dağlıq Qarabağ bölgəsindən olan erməni gənclərin sərgisinin açılması regionda sabitliyin pozulmasına cəhddir



Tbilisideki erməni apostol kilsəsinin “Ayartun” mərkəzində qondarma “Dağlıq Qarabağ respublikası”ndan olan 7 gənc rəssamın sərgisinin açılması regionda sabitliyin pozulmasına yönəlmiş addımdır. AZƏRTAC xəbər verir ki, bu sözləri Gürcüstan Azərbaycanlıları Milli Konqresinin sədri Əli Babayev dekabrın 1-də keçirdiyi mətbuat konfransında söyləyib. Əli Babayev deyib ki, Gürcüstan Xarici İşlər Nazirliyinin bu sərginin şəxsi təşəbbüs qaydasında açılması və hökumətə aidiyyəti olmadığı barədə bəyanatı anlaşılan deyil. Sərginin açılışında apostol kilsəsinin və Ermənistanın Gürcüstandakı səfirliyinin əməkdaşlarının iştirakı nazirliyin məlumatının əksini deyir. Amma bu iki qurumun nümayəndələrinin iştirakı bir çox qaranlıq məqamlardan xəbər verir. Ona görə də Gürcüstan hökuməti bu sərginin qarşısını almalı və lazımi tədbirlər görülməlidir. Konqresin sədri deyib ki, bu, ermənilərin ilk addımı deyil. Onlar separatçı əməllərini davam etdirirlər. Ona görə də sərginin bağlanması istiqamətində qəti addımlar atılmalıdır ki, gələcəkdə belə hallar təkrar olunmasın.

## İndoneziyanın Azərbaycandakı səfiri Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının qonağı olub

İndoneziyanın Azərbaycandakı səfiri Hüsnan bəy Fanani Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının (ATGTİ) beynəlxalq əlaqələr departamentinin təşəbbüsü ilə keçirilən “SəfirləSiz” layihəsi çərçivəsində bu qurumun qonağı olub. AZƏRTAC xəbər verir ki, ATGTİ-nin qərargahında keçirilən görüşdə səfirə təşkilatın fəaliyyəti barədə ətraflı



məlumat verilib. Diplomat ATGTİ-nin gənclərlə iş sahəsində gördüyü işləri təqdirəlayiq hesab edib. Tələbələrin cəmiyyətin aparıcı qüvvələrindən olduğunu vurğulayan səfir görüşün təşkilinə görə İttifaqın sədri, Milli Məclisin deputatı Şahin İsmayılova təşəkkürünü bildirib. Gənclərlə görüşdə İndoneziyanın adət-ənənələri, milli mətbəxi, paytaxtı haqqında ətraflı məlumat verən H.Fanani ölkələrimiz arasındakı qarşılıqlı münasibətlərin tarixindən və inkişafından söhbət açıb. Sonda tələbələrin sualları cavablandırılıb.

# 3 Dekabr Beynəlxalq Əlillər Günüdür

## Ölkəmizdə əlilliyi olan şəxslər hərtərəfli dövlət qayğısı ilə təmin olunub

***Hər il 3 Dekabr Beynəlxalq Əlillər Günü kimi qeyd olunur. İndi dünya əhalisinin təxminən 10 faizini fiziki cəhətdən qüsurlu insanlar təşkil edir. Əlilliyi olan insanların 20 faizi inkişaf etməkdə olan ölkələrdə yaşayır. Azərbaycanda dövlət tərəfindən bu qəbildən olan insanların sosial rifahının yüksəldilməsi istiqamətində mühüm addımlar atılır, bu insanların sosial təminatı ildən-ilə daha da yaxşılaşır. Əlilliyi olan şəxslərin maddi və mənəvi təminatlarının gücləndirilməsi, onların reabilitasiyası və cəmiyyətə inteqrasiyası, ictimai həyatın bütün sahələrində fəal iştirak imkanlarına malik olması Azərbaycan dövlətinin sosial siyasətinin əsas istiqamətlərindən biridir. Dövlətimizin ildən-ilə artan sosialyönümlü büdcəsi də bunu söyləməyə imkan verir.***

Bu gün Azərbaycanda 400 mindən artıq əlil, 60 mindən artıq isə sağlamlıq imkanları məhdud olan insan var. Əlillərin, o cümlədən, sağlamlıq imkanları məhdud olan insanların sosial problemlərinin həllinə dövlət büdcəsindən ayrılan vəsaitin hər il artırılması Azərbaycan dövlətinin bu kateqoriyadan olan insanlara diqqət və qayğısının təzahürüdür.

Azərbaycan BMT Baş Məclisi tərəfindən 2006-cı ildə qəbul edilmiş "Əlillərin hüquqları haqqında" Konvensiyaya qoşulub. Ölkəmizdə əlillərin sosial müdafiəsi ilə bağlı həyata keçirilən genişmiqyaslı tədbirlərin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. XX əsrin sonlarında öz müstəqilliyini bərpa etmiş və hüquqi-demokratik dövlət quruculuğu yolunu tutan Azərbaycan Respublikasında Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə əhalinin bütün kateqoriyalarının, o cümlədən, əlilliyi olan şəxslərin hüquqlarının təmini və müdafiəsi istiqamətində bir sıra mütərəqqi islahatlar həyata keçirilib. Müasir dövrümüzdə bu siyasət Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilməkdədir. Belə ki, ölkə rəhbərliyi tərəfindən həyata keçirilmiş hüquqi islahatların məntiqi nəticəsi olaraq dövlətimizin konstitusiyasında təsbit olunmuş insan hüquq və azadlıqlarının təmini sahəsində mühüm əhəmiyyətli qanunvericilik aktları qəbul edilib. Bu sırada əlilliyi olan şəxslərin sosial hüquqlarının müdafiəsi də mühüm yer tutur.

Ölkə Prezidentinin 2006-cı il 28 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş, Azərbaycan Respublikasında İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planında, eyni zamanda, 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramında əlilliyi olan şəxslərlə bağlı müddəaların olması dövlətimizin bu qəbildən olan təbəqəsinin hüquqlarının təmin edilməsini daim diqqət mərkəzində saxladığını göstərir. Bu qəbildən olan şəxslərin sağlamlığının mühafizəsi və tibbi bərpası, onların xarici ölkələrdə reabilitasiyasına şəraitin yaradılması, xroniki xəstələrə göstərilən ixtisaslaşdırılmış tibbi xidmətin yaxşılaşdırılması, texniki-bərpa və nəqliyyat vasitələri ilə təmin edilməsi və sanatoriya-kurort müalicələrinin təşkili ilə bağlı tədbirlər həyata keçirilib.

Xüsusi qayğıya ehtiyacı olan, sağlamlıq imkanları məhdud insanların digər problemləri kimi, onların təhsili də dövlətin daim diqqətindədir. Belə ki, Azərbaycanda inklüziv təhsilin həyata keçirilməsi sahəsində müvafiq qanunvericilik bazasının yaradılması təşəbbüsləri hələ 90-cı illərin sonlarından irəli sürülmüşdür. 2001-ci ildə isə "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş, qanunun icrasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən müxtəlif təyinatlı 9 qərar qəbul olunmuş, eyni zamanda, Təhsil Nazirliyi tərəfindən "Xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili ilə əlaqədar proqram (2005-2009-cu illər)" hazırlanmışdır. Proqrama uyğun olaraq beynəlxalq təşkilatlarla birgə həyata keçirilən 3 inklüziv təhsil layihəsi, ümumilikdə, 30-dək təhsil müəssisəsini, 100-dən artıq məktəbəqədər və məktəb yaşlı xüsusi qayğıya ehtiyacı olan uşağı əhatə etmişdir.



Azərbaycan Prezidentinin 2014-cü il 20 iyun tarixli Sərəncamı müharibə əlilləri və şəhid ailələrinin dövlət tərəfindən mənzillə təminatı işlərinin sürətlənməsinə şərait yaradıb. Dövlət başçısının tapşırığına əsasən, əlillərin evlə təmin olunması istiqamətində də böyük işlər görülüb və görülməkdədir. Bu insanlar üçün hər il orta hesabla 700-dən çox mənzil tikilir. Ümumilikdə, son illərdə 5 mindən çox Qarabağ müharibəsi əlili və şəhid ailəsi mənzillə təmin olunub. Əlillərin minik avtomobilləri ilə təminatı proqramı da həyata keçirilir. Minik maşını ilə təmin olunan əlillərin də sayı ildən-ilə artır. Prezident İlham Əliyevin müvafiq fərman və sərəncamlarına əsasən, əlillərə ödənilən pensiya və müavinətlərin məbləği də hər il artırılır. Pensiya islahatları çərçivəsində ölkədə sığorta-pensiya sisteminin inkişafına dair 2009-2015-ci illəri əhatə edən Dövlət Proqramı qəbul edilib. Həyata keçirilən islahatlar əlillərin də əmək pensiyalarının ciddi artımına səbəb olub. Beynəlxalq Pensiya və Sosial Fondlar Assosiasiyasının statistikasına əsasən, Azərbaycan hazırda əmək pensiyasının baza hissəsinin məbləğinə görə MDB ölkələri arasında ilk yerlərdən birini tutur. Bütün bunlar isə ölkə əhalisinin, xüsusilə, qayğıya daha çox ehtiyacı olan insanların dövlətin diqqət və qayğısı ilə əhatə olunduğunu göstərir.

Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva da əlillərin problemlərini daim diqqətdə saxlayır. Əlillərin cəmiyyətə inteqrasiyası, onların istedadlarının üzə çıxarılması və inkişaf etdirilməsi və əməklərinin qiymətləndirilməsi istiqamətində Heydər Əliyev Fondunun gördüyü işlərin miqyası genişlənib. Belə ki, kor və zəif görən uşaqlar üçün İKT-yə çıxışın təmin edilməsi layihəsi üzrə BMT ilə əməkdaşlıq sazişi imzalanmışdır.

Heydər Əliyev Fondunun dəstəyi ilə gözdən əlil şəxslərin və görmə qabiliyyəti zəif insanların İKT-dən istifadəsi üçün müxtəlif bölgələrdə Regional İnformasiya Mərkəzləri yaradılıb. Fond, həmçinin, nazirliyin sağlamlıq imkanları məhdud uşaqlar üçün 1 və 2 saylı sosial xidmət müəssisələrində uşaqlar üçün nümunəvi yaşayış və reabilitasiya şəraitinin yaradılmasını təmin edib.

Azərbaycanda əlilliyi olan şəxslərlə bağlı bütün sahələrdə görülən işlər bu təbəqədən olan vətəndaşların hüquqlarının etibarlı şəkildə təmin edilməsinin, onların hərtərəfli diqqət və qayğı ilə əhatə olunmasının dövlət siyasətinin mühüm tərkib hissəsi olduğunu təsdiqləyir.

Hazırda əlilliyi olan insanlar və onların ailə üzvləri də nəzərə alınarsa, Yer kürəsində təqribən iki milyarda yaxın insan əlilliyin doğurduğu problemlərdən əziyyət çəkir. Azərbaycan dövləti isə bu qəbildən olan insanların qayğı və ehtiyaclarını diqqətdə saxlayır, sosial problemlərinin həlli istiqamətində ardıcıl işlər görülür.

**NƏZAKƏT**

# Dekabrın 1-dək Silahlı Qüvvələrə Yardım Fonduna daxil olan vəsaitin məbləği açıqlanıb

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna cari il dekabrın 1-dək 87.032.400,63 manat, 212.873,88 ABŞ dolları, 9236 avro və 5000 rubl vəsait yığılıb. Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.



Silahlı Qüvvələrə Yardım Fondu Azərbaycan Prezidentinin 2002-ci il 17 avqust tarixli Fərmanı ilə yaradılıb. Fond Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müasir tələblər səviyyəsində inkişafını təmin etmək, onun madditexniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirmək məqsədilə yaradılıb. Fondun maliyyə mənbəyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməyi məqsədilə Azərbaycanın ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən könüllülük əsasında daxil olan maliyyə vəsaiti və qanunvericiliklə qadağan edilməyən digər daxilolmalardır. Fondun əsas vəzifəsi Azərbaycan Respublikasının etibarlı müdafiəsi üçün Silahlı Qüvvələrin inkişafını və onun maddi-texniki bazasının möhkəmləndirilməsini, həmçinin hərbi qulluqçuların sosial müdafiəsinin daha da gücləndirilməsini təmin etməkdir.

# Ermənistan ordusunda hərbi qulluqçular döyülüblər



İşğalçı Ermənistan ordusunda qarşılıqlı münasibətlərin pozulması zəminində baş verən cinayət hadisələri zamanı iki hərbi qulluqçu xəsarət alaraq hərbi tibb məntəqəsinə yerləşdirilib. AZƏRTAC xəbər verir ki, tank əleyhinə batareyanın kiçik çavuşu Aşot Gevorkyan ilə bölüyün əsgəri Armen Markaryan arasında baş vermiş insident nəticəsində ikinci gözündən xəsarət alıb. Müqavilə əsasında xidmət edən Rafael Manukyan isə əslən ermənistanlı olduğuna görə Qarabağdan hərbi xidmətə çağırılmış əsgərlər tərəfindən döyülüb. Xəsarət alan R.Manukyan Xankəndi şəhərindəki hərbi hospitala yerləşdirilib.

# "YARAT Teatr Klubu" yeni tamaşasını təqdim edəcək

YARAT

Dekabrın 7-də "YARAT" Müasir İncəsənət Mərkəzində rejissor Elvin Mirzəyevin "Axına qarşı" adlı yeni eksperimental tamaşası təqdim olunacaq. AZƏRTAC xəbər verir ki, tamaşa istedadlı gənclərin aktyorluq potensialını üzə çıxarmaq məqsədilə "YARAT Teatr Klubu"nda hazırlanıb. Tamaşada kastinqdən uğurla keçən Mədəniyyət və İncəsənət Universitetinin tələbələri və həvəskar aktyorlar iştirak edəcək.

İnsan üçün "korluq" nədir? İnsanı öz "korluğunu" qəbul etməyə nə vadar edir? Bəzən insan görməyə çalışsa da, görə bilmir. Bəzən insana görmək nəsib olmur və başqalarının bu qabiliyyətinə dözə bilmir. Bəzən insan görür, ancaq gördüyünü gizlətmək məcburiyyətində qalır. Bütün bu suallara sözügedən tamaşada cavab tapmaq mümkün olacaq. Tamaşa 5 klassik əsər (Nizami Gəncəvinin "Yedi Gözəl", Vilyam Şekspirin "Romeo və Cülyetta", Herman Hessenin "Siddhartha", yunan mifi "Orfey və Evridika" və Mixail Bulqakovun "Ustad və Marqarita") əsasında hazırlanıb.

# Qələbə ilə gerçəkləşən möcüzə və ya Cocuq Mərcanlıdan gələn səslər

***Paytaxtdan Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə təxminən 5 saatlıq yolçuluqdan sonra çatdıq. Kəndə yaxınlaşdıqca, uzaqdan ilk olaraq, məscid minarələri görünürdü. Yolboyu Ermənistanın işğalı altında olan torpaqlarımıza istiqaməti göstərən məlumat lövhələri vurulub. Buradan Cəbrayıla, Qubadlıya, Zəngilana və Laçına da yol gedir. Vaxt gələr bu rahat magistral bizi yolumuzu gözləyən doğma ellərimizə də aparar. Düşüncələrimizi bəzəyən bu xəyallarla gəlib çatırıq aprel döyüşlərindən zəfərlə çıxan Cocuq Mərcanlıya.***




## Burada həyat onların qələbəsindən sonra başlayıb

Kəndin girişində, ən hündür zirvədə aprel döyüşlərində dastan yazan qəhrəmanlarımızın xatirə abidəsi ucaldılıb. Burada həyat onların qələbəsindən sonra başlayıb. Onların xatirəsini yad edib "Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi" yazılan böyük lövhənin altından keçərək, yaşayış məntəqəsinin ərazisinə daxil oluruq.

Yolun kənarlarında səliqə ilə tikilmiş evlər, tikililərin ətrafındakı abadlaşdırılan sahələr, salınan yaşıllıq zolaqları, küçələrdə qurulan işıqlandırma sistemi, öz həyət-bacasında iş görən sakinlər, iş dalınca tələsən insanlar, küçədə oynayan balaca fidanlar, ümumiyyətlə hər şey burada gözəldir, ürəkaçandır. Aparılan tikinti-abadlıq işləri nəticəsində bir vaxtlar azğın düşmənin xarabalığa çevirdiyi kənd qısa bir zamanda bərpa olunaraq, tam müasir yaşayış məntəqəsinə çevrilib.

## Bu sevinci Azərbaycanda qaçqın adı daşıyan hər bir kəsə arzulayıram

Kənd icra nümayəndəsi Xanlar Zeynalovla görüşümüz qısa oldu. Onun sözlərinə görə, yeni salınan qəsəbədə 50 fərdi yaşayış evi tikilib, hər bir ev üçün 10 sot həyətyanı sahə ayrılıb. Ümumi sahəsi 3 min 850 kvadratmetr olan mənzillərin 20-si ikiotaqlı, 25-i üçotaqlı, 5-i isə dördotaqlıdır. Sakinlərin rahatlığı üçün evlərdə hər bir şərait yaradılıb, su, qaz və telefon xətləri çəkilib.

Küçədə ilk rastımıza çıxan Nübar Fətəliyeva, elə sən demə, Cocuq Mərcanlının yenidən qurulmasından sonra buraya ilk qayıdanlardandır. Nübar xanım deyir ki, qaçqın və məcburi köçkünlər üçün dövlətimiz tərəfindən hər cür şərait yaradılır, onlar ölkənin müxtəlif bölgələrində yerləşdirilib. Bütün bunlara baxmayaraq, doğulduğun, boya-başa çatdığın elin-obanın və kəndin yerini heç nə əvəz eləmir: "Neçə illər idi ki, yurdumuzdan ayrı idik. Hörmətli Prezidentimiz İlham Əliyev sağ olsun ki, bu cür şərait yaradıb, evlər tikilib. Çox sevinirəm ki, belə gözəl evimiz var. Mətbəx, hətta uşaqlar üçün otaqlar da nəzərdə tutulub".

Cocuq Mərcanlıda olub, bu kəndin qəhrəman, ən vəfalı sakini Oqtay Həziyevlə görüşməmək haqsızlıq olardı. Oqtay Həziyevlə ayaqüstü görüşüb, söhbətləşdik. 24 ildir yurdunu tərk etməyən, hər daşın-divarın, hər evin keşiyini çəkən bu vətənpərvər insan bir vaxtlar xarabalığa çevrilmiş kəndinin abadlaşmasından böyük fəxr və ürək dolusu danışır: "Bir neçə ayın içərisində, çox qısa bir müddətdə qəsəbə tamamilə yeniləndi, yaxşı mənada, tanınmaz vəziyyətə gəldi. Bu isə dövlətimizin gücünün, qüdrətinin göstəricisidir, eyni zamanda, Prezidentimizin vətəndaşlara və xalqa qayğısından xəbər verir. Biz sakinlərin, vətəndaşların borcu isə dövlətimizə sədaqətlə xidmət etmək, kəndimizi və torpağımızı qorumaqdır. Bu sevinci Azərbaycanda qaçqın adı daşıyan hər bir kəsə arzulayıram".

## 24 ildən sonra burada ilk zəng çalınıb

Yolumuzu bu ilin sentyabrında 24 ildən sonra ilk zəngin çalındığı kənd məktəbindən saldıq. Təhsil ocağının həyətində qazanxana tikilib, voleybol və basketbol meydançaları yaradılıb və yaşıllıqlar salınıb. Məktəbin direktoru Zamin Həziyevlə təhsil ocağının həyətində qarşılaşdıq. Binaya daxil olarkən foyedə ilk diqqəti çəkən Ümummilli Lider Heydər Əliyevin büstü, Dahi Öndərin məcburi köçkünlərə diqqət və qayğısını əks etdirən foto-stend oldu. Foyedəki digər fotosdentlərdə Cəbrayılın işğaldan əvvəlki vəziyyəti, rayonun tanınmış insanları, təhsildə yüksək nailiyyətlər qazanmış rayonun məzunlarının, bu kənddə ermənilərin törətdikləri vandalizm, vəhşilik, 24 il doğma kəndini tərk etməyən Həziyevlər ailəsinin, Prezident İlham Əliyevin tapşırığı ilə əcnəbi media nümayəndələrinin, diplomatik nümayəndəliklərin və beynəlxalq təşkilatların rəhbərlərinin Cocuq Mərcanlı kəndinə səfərlərini əks etdirən fotoları yer alıb. Sinif otaqları, informatika, gənclərin çağırışaqədərki hazırlıq kabinələri, müəllimlər otağından ibarət məktəb binası lazımi inventar və avadanlıqlarla, istilik sistemi və internetlə təchiz edilib. Buradakı ən gözəl mənzərə isə sinif otaqlarının pəncərələrindən Lələtəpəyə açılan görüntü və orada dalğalanan əzəmətli bayrağımızdır.

Məktəbin direktoru Zamin Həziyev deyir ki, təhsil ocağında 60-a yaxın şagird təhsil alır, onların təlim-tərbiyəsi ilə 20-yə yaxın müəllim məşğul olur: "Müəllimlərimizin əksəriyyəti Bakı şəhərindən köçüb gələn müəllimlərdir. Burada şagirdlərə yüksək səviyyədə təhsil və bilik verilir. Çünki biz elə bir məkanda yerləşmişik ki, burada yaşamaq, çalışmaq və oxumaq da şərəfdir. Çünki yaxında düşmən səngərləri var, ora da bizim torpaqlarımızdır. İnanırıq ki, işğal altında olan digər torpaqlarımız da düşmən tapdağından azad olunacaq. İnsanlar öz yurdlarına qayıdacaq və biz müəllimlər də orda öz işlərini davam etdirəcəklər".

## Bir gün mütləq kəndimizə qayıdacağımız ümidi ilə yaşamışıq

Məktəbin direktor müavini Esmira Orucova hələ uşaq ikən ailəsi ilə birgə doğma yurdu tərk ediblər. Amma bir gün mütləq kəndə qayıdacaqları ümidi ilə yaşayıblar: "Kənddən gedəndə, mən 8-ci sinifdə oxuyurdum. Uzun illər biz doğma torpağımıza qayıtmaq arzusu ilə yaşamışıq. Allaha şükürlər olsun ki, artıq kəndimizdəyik. Hazırda burada həm direktor müavini, həm də müəllim kimi fəaliyyət göstərirəm. Mənim üçün çox sevindiricidir ki, vaxtilə bu məktəbdə mənə dərs deyəm qocaman müəllimlərlə indi çiyin-çiyinə çalışıram. 3 aya yaxındır ki, burada yaşayırıq, bizim üçün hərtərəfli şərait yaradılıb. Burada olmağımızdan məmnunuq.

Təbii ki, biz Cənab Prezidentə, milli ordumuza arxayın olub bura qayıtmışıq. Hər səhər məktəbə gələndə, Lələtəpədən bayrağımızın dalğalandığını görürük. Baxmayaraq ki, düşmən postu yaxın ərazidə yerləşir, bizi heç nə qorxutmur, rahat məktəbə gedibgələ bilirik".

Əsmər Mirzəyev 7-ci sinifdə oxuyur. O, əslən Cocuq Mərcanlıdan olsa da, Füzuli rayonunun Qazaxlar kəndində doğulub. Valideynləri ilə birlikdə ata yurduna qayıdıblar: "Bura gözəl məktəbdir, müəllimləri ciddidir. Çalışıram ki, dərslərimi yaxşı oxuyum, ali məktəbə qəbul olum. Oradakı evimiz o qədər də yaxşı deyildi, amma buradakı lap gözəldir. Bağçamızda hər şey əkib- becəririk".

Əliyeva Xəyalə İbiş qızı da Cocuq Mərcanlı kəndində anadan olub. 4 yaşı olanda köçkün düşüblər: "Şükür Allaha ki, dövlətimizin və ordumuzun rəşadəti sayəsində torpaqlarımız işğaldan azad olundu. Mən Bakıda yaşayıram, amma könüllü olaraq kəndimizə gəldim. Burada müəllim işləməyi özüm istədim. Gördüyünüz kimi, hər bir şəraitimiz var. Məktəbimiz heç də şəhər məktəblərindən geri qalmır. İnşallah şagirdlərimizin sayı da getdikcə artacaq. Yaxın günlərdə 100 ev də təhvil veriləcək, o zaman uşaqlar da çoxalacaq".

Günorta azanın səsi eşidilir. Üz tuturuq Cocuq Mərcanlı məscidinə. Azərbaycan və Şərq memarlığının nadir incilərindən sayılan tarixi Şuşa məscidinin bənzəri olan bu dini ibadətgahda dindarlar üçün hər cür şərait yaradılıb. Namazdan sonra məscidin axundu Elman Piriyevlə görüşdük. Onun sözlərinə görə, məscid 50 sot ərazidə inşa edilib, minarələrinin hündürlüyü isə 26 metrdir. Axund deyir ki, hər namazdan sonra dualar edirik ki, Allah dövlətimizin, ordumuzun gücünü və qüdrətini daha da artırsın, işğal edilən torpaqlarımızı düşməndən azad edək, oralarda da kəndlərimiz, evlərimiz, məscidlərimiz bərpa olunsun, azan səsləri eşidilsin.

## Cocuq Mərcanlı kəndinin gələcək həyatı uğurlu olacaq, xoşbəxt olacaq

Bəli, Cocuq Mərcanlı qaçqın və məcburi köçkünlər üçün inşa edilmiş sayca 96-cı yaşayış məntəqəsi olsa da, məcburi köçkünlərin öz yurdlarına qaytarıldığı ilk yaşayış məskəni kimi tarixə düşdü. Kənddə hazırda 400 ev təsərrüfatı, 1428 sakin qeydiyyatda olsa da, əhalisinin əksəriyyəti Biləsuvar rayonu ərazisində salınmış məcburi köçkün qəsəbələrində məskunlaşıb. Ölkənin 17 müxtəlif şəhər və rayonunda müvəqqəti yaşayan həmin ailələrdən 250-dən çoxu isə, müraciət edərək, öz yurdlarına qayıtmaq arzusunda olduqlarını bildiriblər.

Cari il iyunun 14-də Cocuq Mərcanlıya səfər edən Prezident İlham Əliyev yenidən qurulan kənddə görülən işlərlə tanış olarkən bildirdi ki, növbəti mərhələdə təqribən 100 əlavə ev, - bəlkə ondan da çox, - tibb məntəqəsi tikiləcək və iş yerlərinin yaradılması ilə bağlı əlavə tədbirlər görüləcəkdir: "Bax Cocuq Mərcanlı kəndinin tarixi bundan ibarətdir, bu, doğrudan da, şanlı tarixdir. İşğaldan əziyyət çəkən kənd bərpa olunubdur. Azərbaycan öz torpaqlarının bir hissəsini işğalçılardan azad etdi. Bu, doğrudan da, tarixi hadisədir və əminəm ki, Cocuq Mərcanlı kəndinin gələcək həyatı uğurlu olacaq, xoşbəxt olacaq və kənd sakinləri buraya qayıdandan sonra həyat daha da canlanacaqdır".

## Cocuq Mərcanlı adı ilə dünyaya məhsul ixrac olunacaq

Cəbrayıl rayonunun icra hakimiyyəti başçısının müavini Tapdıq Rəsulovun sözlərinə görə, uzun illərdən bəri istifadəsiz qalmış əkinə yararlı torpaqların yenidən əkin dövriyyəsinə qatılması nəzərdə tutulur: "Bunun üçün kənd ərazisində təhlükəsiz yerdən torpaq sahələri ayrılıb. Kəndə yaşayan ailələr əsasən, əkin-biçinlə məşğul olur, amma bununla yanaşı, heyvandarlığın inkişaf etdirilməsi məqsədilə sakinlərə dövlət tərəfindən dəstək veriləcək. Əkin sahələrinin suvarılması üçün nasos stansiyası tikilib. Bu stansiyadan Füzulinin cəbhə xəttinə yaxın yaşayış məntəqələrinin sakinləri də istifadə edəcəklər. Hazırda kənd təsərrüfatında istifadə olunacaq torpaq sahələrindən nümunələr götürülərək laboratoriyalara göndərilib. İstehsal olunacaq hər hansı bir məhsul Cocuq Mərcanlı adı ilə dünyaya ixrac olunacaq və bununla da, həyata keçiriləcək layihənin iqtisadi və sosial tərəfi ilə yanaşı, siyasi əhəmiyyəti də rol oynayacaq".

## Bütün səslər bizə qələbə, qələbə, yenə qələbə deyirdi

Biz Cocuq Mərcanlıda yenicə qaynamağa başlayan həyat gördük, azan səsi dinlədik, şən cocuqların gülüş səsini duyduq, insanlarda qələbədən sonrakı ruhu hiss etdik, Lələtəpədə dalğalanan şanlı bayrağımızın səsini eşitdik və bütün səslər bizə qələbə, qələbə, yenə qələbə deyirdi. Cocuq Mərcanlıdan qayıdırıq, Lələtəpədə dalğalanan bayraq, səmada dolaşan şəhid ruhları, oxunuşunda ruhumuza hüzur verən axşam azanı, qəhrəman yurdun igid insanları salamat qalın. Bir də səngərdə, düşmən önündə dağ kimi dayanıb, keşiyimizi çəkən igid Azərbaycan əsgəri səndən daha böyük qələbələr və neçə-neçə qəhrəmanlıq dastanları gözləyirik.

***Cabir Məmmədov***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçündür*

# Müsavat partiyası ilə "Milli Şura" qarşıdurması davam edir

*Azərbaycanda hər seçkiöncəsi müxalifətdaxili qarşıdurmalar özünü daha qabarıq şəkildə büruzə verir ki, baş verənlərin hansı nəticələrə səbəb olacağı göz önündədir. Artıq həm Müsavat, həm də "Milli Şura" yenidən öz mövqelərini tutaraq, didişmələrə start veriblər. Müxalifət daxilində parçalanma o yerə gəlib ki, artıq iqtidarla yox, bir-biri ilə rəqabət aparırlar.*

Müsavat partiyası "Milli Şura" ilə birgə mitinqlər də keçirə bilərdi, ən azından kütləvi aksiyalarda iştirak edə bilərdi, ayrıca mitinq təşkil etməyə səy də göstərərdi. Amma görünür, partiya resurslarının azaldığına və nüfuzunun qalmadığına görə, heç birinə cəhd etmədi. Yalnız 10-15 nəfərin iştirakı ilə keçirilən piketlə kifayətləndi və bu da, öz növbəsində, nəbz yoxlamasından başqa bir şey deyildi. Görünür, partiyanın seçkilərdə iştirakı da formal və dekorasiya xarakteri daşıyacaq. Müsavatda əks fikirli, tənqidçi və AXCP ilə, ümumiyyətlə, "Milli Şura" kimi digər müxalif qurumlarla yaxınlaşma tərəfdarı olanlar qalmayıb. Partiya totalitar idarəçilik modelini seçib. Müsavat başqanı hansı qərarı verirsə, yekdilliklə qəbul olunur və əks-mövqe qəbul olunmur. Bu baxımdan, partiya loyallaşıb, imicini itirib, sosial bazası, hətta əvvəlki dövrlə belə müqayisədə tamamilə azalıb.

**Müsavatın resursları zəiflədikcə "Milli Şura" özünü ana müxalifət, fəal qurum kimi sırımağa cəhd edir**

Bu vəziyyətdən sui-istifadə edən "Milli Şura" özünü ana müxalifət kimi təqdim etməkdə davam edir. Ardıcıl olaraq, mitinq keçirməklə də diqqəti özünə çəkməyə çalışan şura, əslində, Müsavatın iştirakına maraq göstərməməklə, özünü siyasi müstəvidə fəal qurum kimi sırımağa və qazanmaq istədikləri siyasi dividendin yalnız özlərinə məxsus olduğunu nümayiş etdirməyə cəhd edir. Buna görə də, "Milli Şura" Müsavatı saymır və birliyə də çağırış etmir. Əksinə, "şura" Müsavat partiyasını mövqesizlikdə, gücsüzlükdə ittiham edərək, lağ hədəfinə çevirib. "Milli Şura"nın koordinasiya mərkəzinin üzvü Eldəniz Quliyev Müsavat partiyasını mitinq və piket keçirə bilmədiyinə görə ələ salır. "Şura" üzvləri sosial şəbəkələrdə Müsavat nümayəndələrini təhqir edir, lağa qoyur, mitinq, piket və yürüş keçirə bilmədiklərinə görə xəcalət çəkməli olduqlarını ifadə edən statuslar yazırlar.

Statuslar iki siyasi qurum arasında köhnə ədavəti yenidən alovlandırıb. Müsavatçılar da ittihamları cavabsız qoymur və soyuqqanlı şəkildə "Mitinq keçirənlər nə edib?" cavabı ilə, əslində, "Milli Şura"nın mənasız fəaliyyətini qiymətləndirirlər. "Milli Şura" ilə münasibətlərinin gərgin olduğunu etiraf edən müsavatçılar bildiriblər ki, Müsavat partiyası və digər siyasi qurumlarla məsləhətləşmələr aparılmadan mitinqlər təyin olunursa, heç bir iştirakdan, bir sözlə, birlikdən söhbət gedə bilməz və nəticədə də aksiyaları iflasa uğrayır. Müsavatçıların "Milli Şura"nın mitinqlərini "stadion mitinqləri" adlandırmaları isə qalmaqalı daha da böyüdüb.

**Müsavatın piketi, sadəcə, imitasiya idi**

Maraqlıdır, Bakı meriyası mitinqə yer ayırdığı halda, Müsavat partiyası niyə icazəli mitinq keçirmədi və icazəsiz piket təşkil etdi? Təbii ki, Müsavatın icazəli mitinqdən imtina etməsi və piket keçirməsi ikibaşlı siyasətdir. Əvvəla, partiya yaxşı başa düşür ki, "Məhsul" stadionuna aksiyaçı yığmaq gücü yoxdur. Çünki 10-15 nəfər piket və yürüş iştirakçısı ilə "Məhsul" stadionunda heç "şura" qədər belə adam toplaya bilməyəcək və onlardan da daha acınacaqlı nəticə ilə qarşılaşacaq. İkincisi də, icazəsiz piketlə daha çox səs-küy qoparmaq istədilər. "Milli Şura"nın mitinqlərinə dəstək verməyən və AXCP ilə düşmən olan Müsavatın bu piketi, sadəcə, imitasiya idi.

Qarşıdurma ən çox AXCP sədri Ə.Kərimlinin Müsavatı müxalifətin birliyini pozmaqda ittiham etməsi ilə başlayıb. Doğrudur, həmin ittihama qədər cəbhəçilər keçirdikləri mitinqlərlə bağlı Müsavata atmacalı sözlər atır, bir aksiya keçirməyə gücündə olmadığını deyirdilər. Müsavatçılar isə, sıravi üzvlər səviyyəsində onlara cavab verirdi. Kərimlinin dedikləri isə, sanki közərməkdə olan odun üzərinə benzin tökmək kimi bir effekt verib. Bu davanın əsas "qəhrəmanı"na isə "Milli Şura"nın koordinasiya mərkəzinin üzvü Gültəkin Hacıbəyli çevrilib. Belə ki, onun sosial şəbəkələrdə işlətdiyi saxta profil üzə çıxıb və məlum olub ki, indiyə qədər "Milli Şura"nın fəal təbliğatını aparan Türkel Oğuz adlı profil Gültəkin Hacıbəyliyə məxsusdur.

**"Boykot" Müsavatın məğlubiyyət qabağı reaksiyasıdır**

Göründüyü kimi, yalnız şəxsi maraqları və ambisiyaları ön planda olduğu üçün keçmiş "müttəfiqlər" bu cür açıq savaşa başlamaq məcburiyyətindədirlər. Çünki hansısa əməkdaşlıq barədə uydurmalar, nağıllar artıq partiya üzvlərinə belə inandırıcı görünmür. A.Hacılı ilə Ə.Kərimlinin bir-birilərinə qarşı antipatiya hissi isə sıravi partiya üzvləri tərəfindən də, hiss edilir ki, bu fakt özünü sosial şəbəkələrdə tam çılpaqlığı ilə sərgiləməkdədir. "Bir dəfə, "şura" hökuməti gəlib Müsavat hökumətini devirdiyi üçün şura sözünə nifrət edirəm" fikrini paylaşan müsavatçı, əslində, təmsil olunduğu partiyanın "şura" ilə təkcə fikir ayrılığını deyil, birmənalı olaraq nifrətini büruzə verir.

Yenə də Müsavat partiyası çoxdandır əzbərlədiyi bir sözü, "boykot" sözünü xatırlayıb və bu dəfə bu sözü "Milli Şura"ya qarşı tətbiq etməyə qərarlıdır. Əslində, bu ifadə müsavatçıların intuisiyası güclü olan nümayəndələrinin məğlubiyyət qabağı reaksiyası, yaxud artıq əvvəlcədən qəbul etdiyi məğlubiyyətini bəyan etmə tərzidir. Amma boynuna almasa belə, başda "Milli Şura" olmaqla, bütün müxalifət düşərgəsində təmsil olunan qurumlar bu məğlubiyyəti çox yaxşı başa düşürlər. Həmişə olduğu kimi, sivil mübarizə metodlarından başqa bütün vasitələrə əl atan müxalif qurumlar, yenə də ənənələrinə sadiq olaraq, didişməyi, bir-birini təhqir etməyi məqbul hesab edir və bunu yalnız real şəraitdə deyil, virtual müstəvidə də nümayiş etdirir. Siyasi mübarizəni konfliktlərdən, təhqir və təhdidlərdən fərqləndirə bilməyən qurumlardan bundan başqa heç nə gözləmək olmaz və sərgilədikləri bu dırnaqarası mübarizənin məğlubiyyətlə nəticələnəcək acınacaqlı sonluğunu da öncədən proqnozlaşdırmaq çətin deyil.

**İnam HACIYEV**

# Əli Kərimli və İsa Qəmbər bu reallığın tam astanasındadırlar

*Sirr deyil ki, Müsavatln sabiq başqanı, siyasi gündəmdə qalmaq üçün özünə "MSDM" adlı qurum yaratmış İsa Qəmbər 2018-ci il seçkilərinə qatılmaq planını işə salıb. Lakin onun qarşısında yeganə problemin "Milli Şura" sədri Cəmil Həsənli deyil, həm də AXCP sədri Əli Kərimlidir. O cümlədən, o da bəlidir ki, Müsavat partiyası heç bir seçki blokuna və ittifaqına qoşulmaq fikrində deyil.*

Çünki 2013-cü il seçkilərində müxalifət "vahid namizəd" irəli sürdü. Sonra "Milli Şura" parçalandı, əksər təşkilatlar qurumu tərk elədi və Müsavat AXCP ilə yollarını birdəfəlik ayırdı. Əbəs yerə deyil ki, 2015- ci ilin parlament seçkilərində də hər iki partiya arasında kəskin qarşıdurma və qovğa yaşanmışdı. Yeri gəlmişkən, A.Hacılının başqanlığı dönəmində də Ə.Kərimli ilə görüşlər baş tutmayıb və bu amil iki partiyanın düşmənçiliklərinin göstəricisidir. Hətta Müsavat başqanının müavini Tofiq Yaqublu həbsdən çıxdıqdan sonra iki partiyanı yaxınlaşdırmaq istiqamətində addımlar atacağını desə də, reallıqda nəticələr əldə edilmədi. Üstəlik Yaqublu "Milli Şurada" qalan yeganə müsavatçıdır. Beləliklə, 25 ildir ki, düşmənçilik edən partiyaların vəziyyətləri göz önündədir.



**Parçalanmağın sübutu**

Bir-birinə patoloji nifrət göstərən tərəflər, hesab edirlər ki, onların hər biri olmasa, o, müxalif düşərgənin "lideri" ola bilər. Necə deyərlər, Ə. Kərimli ilə İ. Qəmbər heç axırətdə də barışa bilməzlər. Bu nifrətin kökündə birinin digərindən üstün olmaq iddiasıdır. Tarixi xatırlayaq: "Milli Şura" yaradılarkən, bu qurumun cəmiyyətin bütün təbəqələri tərəfindən dəstəklənəcəyi, həmçinin müxalifətin birliyinə çevriləcəyi bildirilirdi. Lakin "Milli Şura" daxilində baş verən proseslər əvvəlcədən verilən bəyanatlarla reallığın üst-üstə düşmədiyini göstərdi. Uzun çək-çevirdən sonra Rüstəm İbrahimbəyovu özlərinə namizəd edənlər qısa vaxtda seçimlərində yanıldıqlarını gördülər. Son anda C.Həsənlini "vahid namizəd" edib, vəziyyətdən çıxmağa çalışdılar. Lakin bu da "Milli Şura"nı parçalanmadan xilas edə bilmədi.

**Məntiqi nəticə...**

Beləliklə, AXCP-Müsavat partiyaları və "El" hərəkatının rəhbəri Eldar Namazov arasındakı narazılıq açıq müstəviyə keçdi. Ardınca Azərbaycan Liberal Partiyasının "lideri" Lalə Şövkət, KXCP sədri Mirmahmud Mirəlioğlu və s. "Milli Şura"nı tərk etdilər. 2018-ci il isə onlar üçün son deməkdir. Yəni istər AXCP, istərsə də Müsavat üçün siyasi yekun ili qarşıdan gələn prezident seçkiləri dövrüdür ki, artıq Ə.Kərimli və İ. Qəmbər bu reallığın tam astanasındadırlar.

**Rövşən RƏSULOV**



## Hindistanda qasırğa: azı 8 nəfər həlak olub, 86 balıqçı itkin düşüb

Hindistanın cənub ştatlarında qasırğa ilə müşayiət olunan "Okhi" siklonu nəticəsində azı 8 nəfər həlak olub, 86 nəfər isə itkin düşüb. AZƏRTAC xəbər verir ki, NDTV telekanalının yaydığı məlumata görə, qasırğa ölkənin Kerala və Tamiland ştatlarına noyabrın 30-da çatıb. Tamiland ştatının Kanyakumari şəhərinin alçaqlıqda yerləşən rayonlarından 845 nəfər təxliyə olunub. Qasırğa zamanı dənizdə olan 86 balıqçının axtarışları davam edir.

Hindistanın meteoroloji xidməti küləyin sürətinin saatda 65-75 kilometrə çatdığını bildirib. Cənub ştatlarının 4 şəhərində məktəblər bağlanıb, insanlara evlərini tərk etməmək tövsiyə olunub. Siklon səbəbindən bəzi rayonlar elektriksiz qalıb. Ölkənin cənub ştatlarında, həmçinin Andaman, Nikobar və Lakşadvip adalarında qasırğanın sutka ərzində davam edəcəyi gözlənilir.

# Azərbaycan xalqının toy adətləri: ozan toyları və müasir toylar

***Azərbaycanda ailə-məişətlə bağlı adət-ənənələrin incisi toy-düyün idisə, toy şənliklərinin bəzəyi musiqi idi. Toya varlı ailələr xanəndə, sazandalar və aşıqlardan ibarət bir neçə musiqiçi dəstəsi dəvət edərdilər. Yoxsul ailələrin toyunda isə musiqiçilər zurna-balaban və nağara-qaval çalanlardan ibarət olardı. Toyu ailənin sosial mənsubiyyətindən və maddi durumundan asılı olmayaraq, Azərbaycanın Qarabağ bölgəsində xanəndəsiz, Şirvan və Qərb bölgələrində aşıqsız təsəvvür etmək olmazdı.***

Toyda ustad aşıqlar dastan söyləyən zaman kənd əhli böyüklü-kiçikli onları dinləməyə gələrdi. Ozan-aşıqlar qədimdə də Azərbaycan toylarının yaraşığı olmuşlar. Bütün Oğuz toylarında ozan başda oturardı. Oğuz toy şənliklərindən bəhs edən “Kitabi-Dədə Qorqud” dastanında musiqi alətlərindən “sırna” (zurna) və nağaranın, rəqslərdən isə “yellətmə”nin (yallının) adları çəkilməklə yanaşı, “qopuz çalıb boy boylayan, soy soylayan” ozan-aşıq yaradıcılığından geniş bəhs edilir. Orta əsrlər Azərbaycan dastanlarında da ozan və aşıqların toylarda göstərdikləri sənətkarlıq məharətlərindən xəbər verilir. Toylarda xalq mahnılarının ifası da geniş yer tutmuş, musiqi ilə rəqs qədim zamanlardan əkiz olmuşdur. Cavanlar “Yallı”, “Cəngi”, “Qaytağı”, “Uzundərə”, “Tərəkəmə”, “İnnabı”, “Turacı”, “Ceyranı”, “Mirzəyi”, “Köçəri”, “Əsgəri”, “Qazağı” və s. oyun havalarını rəqs etməkdən yorulmazdılar.

Toya çağırılan musiqiçilərə, müğənnilərə, xanəndələrə və aşıqlara xələt, hədiyyə və pul vermək qədim zamanlardan el adəti olmuşdur. Azərbaycan xalq dastanlarında deyilir ki, aşığı xalq dolandırar. “Kitabi-Dədə Qorqud” dastanında bacılarının yanına ozan qiyafəsində gələn Beyrək bəy deyir: “Köhnə qaftanınız var isə geyəyin, düyündə əlimə qaftan girərsə, geri qaftanınızı verəyin”.

Azərbaycanın toylarını idarə edən, onun aparıcısı “toybəyi” adlanırdı. Bəzi bölgələrdə ona “toy babası” “toybaşı”, “toyağası”, yaxud “şah” deyilirdi. Toybəyinin sözü toy iştirakçıları üçün qanun sayılırdı; hamı onun dediklərinə əməl etməli idi. O, toyda istədiyi adamı oynamağa məcbur edər və ya cərimələyərdi. Toybəyi şənlik məclisini öz köməkçisi vasitəsilə idarə edirdi.

Keçmişdə Bakı kəndlərində çalğıçı sazəndələr əvəzinə, dərvişlərin iştirakı ilə toy etmək də dəbdə olmuşdur. Belə toylarda dərvişlər Məhəmməd Peyğəmbər (s), xəlifələr, imamlar və b. müqəddəslərin həyatından, igidliklərindən söhbət etməklə yanaşı, silah oynatmaq, gözbağlıca, falabaxma və s. ilə də toya gələnləri əyləndirərdilər.

Kənd yerlərində toy-düyün zamanı müxtəlif idman yarışları, oyun və əyləncələr təşkil edilərdi. Kəndin gəncləri özlərinin at çapmaq məharətlərini cıdır yarışında nümayiş etdirərdilər. Cıdırda qalib gəlmiş atın boynuna kələğayı bağlayar və ya sahibinə köynək hədiyyə verərdilər. Cavanların bir hissəsi güləş yarışında, digər hissəsi isə güc sınama ilə bağlı olan başqa oyunlarda iştirak edərdilər. Bəzi toylarda atıcılıq məharətini nümayiş etdirən yarışlar da təşkil olunardı. Qədimdə Azərbaycan toylarında at çapmaq yarışı və bəy oğlanın üzüyünü nişan alıb ox atma yarışı “Kitabi-Dədə Qorqud” dastanında təsvir olunmuşdur: “Məyər göykünün üzüyünə nişan atarlardı. Beyrək (bir) oxla üzüyü urdu, paraladı”.

Keçmişdə Azərbaycanın bəzi bölgələrində oğlan evində toy olan zaman qız evində də toy olardı. Qız toyunda çalğıçılar da qadınlardan ibarət olardı. Gəlin qızı bəzədib toy məclisinin yuxarı başında oturdardılar. Qazax bölgəsində gəlin qızın qarşısında meyvə, çərəz və şirniyyatla dolu iki xonça və rəfiqələri tərəfindən bəzədilmiş “şax” qoyardılar. Toyda qadın müğənnilər el bayatılarından oxuyar və qızlar oynayardılar. Şəki şəhər toylarında oynayan qızların alnına “şabaş” olaraq əsginas pul yapışdırmaq adəti də var idi. Qızlar həmin pulları toy çalanların qənşərinə atıb oturan-yarısına qədər çalıb-oynayardılar. Sonra qadınlara yemək verilərdi. Qonaqlar yemək yeyib dağılışardılar, qızlar isə oxuya-oxuya o biri otağa keçərdilər. Gəlin qızın yengəsi hənanı xonçadan götürüb bir camda isladar, gəlin qızı öz yatağına uzadıb əl-ayağına həna yaxar, yorğan-döşək bulanmasın deyə üstündən qırmızı şilə dolayıb bağlayardı.

Qız evində olan bu sonuncu toy şənliyi Azərbaycanın əksər bölgələrində “xınayaxdı”, bəzi yerlərdə “xına toyu”, Bakı, Lənkəran və Şəki bölgələrində həm də “qız toyu”, Qazax bölgəsində “qız başı”, Quba bölgəsində “xına gecəsi”, Təbriz bölgəsində isə “yegəl” adlanırdı. “Xınayaxdı” gecəsindən başlayaraq, nişanlı qıza “gəlin qız”, adaxlı oğlana “bəy oğlan” deyilirdi”.

Toy-düyün prosesinin adət-ənənələrlə zəngin mərhələlərindən biri də gəlin qızın köçürülməsidir. Gəlin gətirilən gün oğlan evində toy xörəyi üçün ertədən tədarük görülərdi. Qız evində isə gəlinin cehizinin siyahısı tutulardı. Siyahı tutma mərasimində həm qız, həm də oğlan evinin nümayəndələri iştirak edərdilər. Cehiz şeylərinin siyahısının tutulmasına axund və molla ilə birlikdə kəndin və ya məhəllənin ağsaqqalları da dəvət edilərdilər. Siyahıya ən öncə “Quran”, sonra “canamaz” və “möhür” yazılırdı. “Quran” və namaz dəstgahından başqa qalan şeylərə qiymət qoyulardı. Qızın siyahıda göstərilən cehizləri aparmasının şahidləri kimi, biri oğlan, digəri isə qız evindən olmaqla, iki nəfər siyahını imzaladıqdan sonra onu qızın atasına təqdim edər, o da həmin siyahını saxlamaq üçün arvadına

dan sonra, sərpayı qadın “şabaş” verənlərdən bir-iki şahı metal pul alıb əsginasları özlərinə qaytarardı. Şəkidə toy sahibi uzaqdan gələn qonaqları və qohumları gəlin qızla birlikdə xəlvəti bir otağa çağırıb yemək verərdi, qalan qızlar isə axşamacan toyda oturar, gecələr evlərinə gedərdilər.

Qəzənfər Rəcəbli yazır: “Toy şənlikləri adətlərindən biri də qız evində icra olunan xınayaxdı idi. Gəlin köçməmişdən bir gün öncə oğlan evindən qız evinə boynuna qırmızı şərid bağlanmış bir qoç və toy tədarükü üçün ərzaq göndərilərdi. Qız evində xörək bişirib axşam toy şənliyinə hazırlaşardılar. Axşamüstü dəvət olunmuş qadınlar qız evinə toy şənliyinə toplaşardılar. Axşam isə oğlanın anası, bacıları, ən yaxın qadın qohumları və qonşuları xonça düzəldib, qız evinə xınayaxma mərasiminə gedərdilər. Xonçada gəlin üçün həna, iki bəzəkli şam, qənd, çay, noğul və xuşkəbər ilə birlikdə bir cüt ayaqqabı da olardı. Gələnləri qarşılayan qızın anası və ya bacısı xonçanı onlardan alıb evə aparar, özlərini isə toy məclisinə dəvət edərdi. Gecə

verərdi.

Cehiz siyahıya alındıqdan sonra kəbin kəsilməsinə başlanardı. Kəbin keçmişdə, adətən, nişan-şirni mərasimində kəsilərdi. Bəzən isə, kəbinkəsmə mərasimində oğlan və qızın vəkilləri (adətən, ataları, əmiləri, dayıları və ya qardaşları) iştirak edərdilər. Kəbin kağızına “mehr”in miqdarı, yəni nikaha girmənin haqqı da qeyd edilirdi. Şəriətə görə, kişi arvadını boşamaq istədikdə, kəbin kağızında qeyd olunmuş mehri ona verməli idi. Odur ki, çox vaxt nikahın möhkəmliyini təmin etmək, boşanmanı çətinləşdirmək məqsədilə kəbin kağızına elə şeylər yazırdılar ki, onu vermək müşkül olsun. Kəbin kağızını nikaha girən oğlan və qızdan əlavə, hər tərəfdən bir nəfər olmaqla, şahidlər imzalayırdı, sonra isə axund, yaxud qazı imza və möhür ilə təsdiq edirdi. Kəbin kağızı bir müddət qızın atası evində qorunub-saxlanırdı.

Kəbin kəsildikdən sonra qızın cehizi oğlan evinə daşınır və gəlin otağı döşənib-bəzənirdi. Həmin gün axşam üstü bəy oğlan sağdış-soldış və tay-tuşları ilə birlikdə “bəylik hamamına” gedirdi. Qız evindən bəy hamamı üçün xüsusi “bəy xonçası” gələrdi. Xonçada ipək köynək, araqçınlar, corablar, ipək yaylıqlar və s. hədiyyələr olurdu. Hamamdan sonra bəy oğlan qızın hədiyyəsi olan ipək köynəyi və corabın bir cütünü geyər, araqçınlardan birini başına, yaylıqlardan birini cibinə qoyar, qalanlarını sağdış və soldışa verərdi. Azərbaycanda qız tərəfindən bəy oğlan üçün hədiyyə köynək göndərilməsi adəti qədimdə də olmuşdur. “Kitabi-Dədə Qorqud” dastanında da deyilir: “Adaxlısından ərgənlik bir qırmızı qaftan gəldi. Beyrək qaftanı geydi”.

Bəy oğlan hamamdan qayıtdıqdan sonra, təxminən axşam saat 8-də toya çağırılmış qonaqlara xörək verilərdi. Hazırlanmış xörəklərdən ən əvvəl bir-iki qab çəkib qız evinə göndərərdilər, sonra məclisə xörək paylanardı. Kişilər xörək yedikləri vaxt qadınlar başqa bir otaqda çalıb-oynayardılar. Kişilər yeyib qurtardıqdan sonra cavanlar gəlini gətirməyə gedərdilər. Gəlin gətirməyə gedənlər məşəllər yandırıb, musiqinin sədaları altında qız evinə yürüş edərdilər. Yolda tüfəng və fişəng atar, papaqlarını göyə atıb-tutar, hurray çəkərdilər.

Adətə görə, gəlini gətirmək üçün bəyin atası, qardaşı, bacısı, əmisi, dayısı, əmi-dostusu, dayı-dostusu, böyük qardaşın arvadı və başqaları gedərdi. Gəlini gətirmək üçün gedən adamlar arasında oğlan yengəsi də olardı. Keçmişdə Qazax bölgəsində bəy oğlan da “qardaşlıq” adlanan sağdışı ilə birlikdə gəlin gətirməyə gedərdi. Zəngəzur bölgəsində isə gəlin gətirməyə bəy deyil, onun sağdışı və soldışı gedərdi. Oğlan adamları qız evinə çatdıqda kişilər həyətdə dayanar, oğlan yengəsi isə gəlin geyinən otağa girərdi. Bu zaman qız yengəsi gəlini geyindirməyi başa çatdırardı. Oğlan yengəsi gəlinin başına duvağı salaraq: “Mübarək olsun, ayağı düşərli olsun”, - deyərdi. Sonra bəy oğlanın qardaşını və ya əmisi oğlunu gəlinin belini bağlamaq üçün içəri çağırardılar.

***Vahid ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 2 dekabr

## Orqanizm təmizlənməsinin sadə üsulu

Tübaj öd kisəsinin yuyulması prosesidir, çox səmərəli müalicəvi və profilaktik üsuldur. Tübaj həzmi yaxşılaşdırır, öd kisəsində olan durğunluqla mübarizə aparır, ən əsası isə öd daşlarının əmələ gəlməsinin qarşısını alır.

AZƏRTAC xəbər verir ki, tübaj etməyə qərar verərkən ilk növbədə öd kisəsində daş olmadığına əmin olmaq lazımdır, əks halda hətta çox kiçik, hətta ağrı verməyən "lal" daşlar da tübajın təsiri ilə öz yerini dəyişib öd axarını bağlaya bilər və təcili cərrahi əməliyyata ehtiyac yaranar. Ona görə də prosesdən əvvəl mütləq ultrasəs müayinəsindən keçmək və həkimlə məsləhətləşmək lazımdır. Kəskin xolesistiti, mədə və onikibarmaq bağırsağın xora xəstəliyi də tübaj üçün əks göstəriş sayılır. Həmin xəstəliklər olmayanda tübajdan istifadə etmək daha yaxşı nəticə verir.



Tübay etmək üçün axşamdan 500 ml mineral su açıq qaba tökülərək səhərə qədər saxlanılır ki, tərkibində olan qazlar çıxsın. Mineral su 40-45 dərəcəyə qədər qızdırılır, səhər tezdən acqarına iki-üç qurtum su içilərək 3-5 dəqiqə bel və sağ böyrü üstə uzanılır. Sağ böyrün qabırğaaltı nahiyəsinə dərini yandırmamaq üçün isti su ilə dəsmala bükülmüş isitqac qoyulur. Sonra ayağa qalxıb və ya oturulu vəziyyətdə yenə də iki-üç qurtum su içilərək uzanılır. Həmin qayda ilə təxminən yarım saat ərzində yarım litr su içilir və yenə uzanılır. Tübaj nəticəsində öd qatılığı azalır, öd kisəsinin hərəkətliliyi artır, hətta ilk tübajdan sonra ağızda acılıq, gəyirmə və sağ qabırğaaltı nahiyədə ağırlıq hissi keçir. On gündən artıq tübajı təkrar eləmək olmaz. Prosedur ikinci dəfə aparılanda həkimin məsləhəti ilə mineral suya ödqovucu vasitələrdən biri əlavə edilməlidir.

## Saçınız ağarırsa, ürəyinizi yoxlayın!

Misir alimləri aşkar ediblər ki, saçların ağarması ürək-damar xəstəliklərinin yüksək riskindən xəbər verir. Medicalxpress xəbər verir ki, Kair Universiteti alimləri 545 kişini kompüter tomoqrafiya və koronar angioqrafiya müayinəsindən keçiriblər. Bu zaman müayinələrin nəticələri iştirakçılarda ağ saçların nə qədər çox olması ilə müqayisə olunurdu. Nəticədə məlum olub ki, ağ saçları çox olan insanlarda ürək-damar sistemi xəstəliklərinin riski daha çoxdur.

Araşdırmanın müəllifləri xəbər verir ki, saçların ağarması və ateroskleroz oxşar bioloji proseslərdir. Bu səbəbdən saçların ağarmasının sürəti aterosklerozun inkişafı sürətindən xəbər verə bilər. Nəzərinizə çatdıraq ki, ateroskleroz ürək və damar xəstəliklərinin, infarkt və insultun əsas səbəbi sayılır. Ateroskleroz zamanı damarlarda piyə oxşar maddə xolesterol yığılır. Nəticədə damarlar daralır, zəif və kövrək olur.

## Gömrükçülər narkotik vasitə aşkarlayıb

Gömrükçülər narkotik vasitə aşkarlayıb. Dövlət Gömrük Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Biləsuvar Gömrük İdarəsinin Gömrük hüquqpozmalarına qarşı mübarizə şöbəsinə daxil olan əməliyyat məlumatı əsasında, idarənin "Qoşa Təpə" gömrük postunda İran İslam Respublikasından ölkəmizə piyada gələn Azərbaycan vətəndaşı saxlanılıb və üzərində şəxsi yoxlama aparılıb. Yoxlama zamanı həkim müayinəsinə zərurət yarandığı üçün vətəndaşın daxili orqanları müayinədən keçirilib. Nəticədə, həmin şəxsin mədəsində 55 ədəd bükümdə, ümumi xalis çəkisi 281,105 qram olan narkotik vasitə - heroin aşkar edilib. Faktla bağlı araşdırma aparılır.

## ELAN

**ADPU-nun İbtidai təhsil fakültəsinin II kurs tələbəsi Musayeva Ləman Mahir qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

* * *

**Əliyev Emil Bəxtiyar oğluna məxsus seriya №-si RX0354087 olan kupça (çıxarış) itdiyi üçün etibarsız sayılır.**

## Nizami Hacıyevə və Mirhüseyn Seyidova futbol ilə məşğul olmaq ömürlük qadağan edilib




Dekabrın 1-də AFFA-nın İntizam Komitəsinin iclası keçirilib. AZƏRTAC AFFA-ya istinadla xəbər verir ki, iclasın qərarına görə, "Keşlə" futbol klubunun AFFA-ya rəsmi müraciətinə, hüquq mühafizə orqanları tərəfindən təqdim edilmiş məktuba və UEFA-dan daxil olmuş məlumatlara əsasən, iştirakçısı olduğu oyunun idman nəticəsinin manipulyasiyasına görə "Keşlə"nin futbolçuları - Nizami Hacıyevə və Mirhüseyn Seyidova futbola aid hər hansı məşğuliyyət ömürlük qadağan edilib. Oyunların idman nəticəsinin manipulyasiyasında iştirakı ilə bağlı şübhələrin mövcud olduğu digər futbolçular barədə araşdırmanın davam etdirilməsi barədə qərar qəbul olunub. Tərəflər bu qərarı aldıqdan sonra 15 gün ərzində AFFA-nın Apellyasiya Arbitraj Tribunalına qərarla bağlı apelyasiya şikayəti verə bilərlər.

## Azərbaycanlı hakim CEV-dən növbəti təyinat alıb

Azərbaycanlı hakim Eldar Zülfüqarov Avropa Voleybol Konfederasiyasından (CEV) növbəti təyinat alıb. AZƏRTAC xəbər verir ki, E.Zülfüqarov Çempionlar Liqasının birinci turunda iş başında olacaq. Həmyerlimiz Novosibirskdə kişi voleybolçular arasında keçiriləcək "Lokomotiv" - "Dinamo" (hər ikisi Rusiya) matçında ikinci hakim olacaq. O, dekabrın 7-də keçiriləcək görüşdə belaruslu Yuri Bakunoviçə kömək edəcək.

## Messinin qardaşı həbs olundu



"Barselona"nın futbolçusu Lionel Messinin qardaşı Matias Messi həbs olunub. Apasport.az saytı xəbər verir ki, bu barədə məşhur "The Sun" nəşri məlumat yayıb. O, polisin qana bulaşmış qayıqda tapança tapmasından sonra tutulub. Matias motorlu qayıqla Argentina sahillərindən birində qəzaya uğradığını iddia edib. Lakin hadisə yerinə gələn polis qana bulaşmış qayıqda tapança aşkarlayıb. Bundan əvvəl Messinin qardaşı mühafizəçiyə qanın üzündəki kəsiklə bağlı olduğunu bildirsə də, polis onun sözlərinə inanmayıb. Qeyd edək ki, ulduz futbolçunun qardaşı qalmaqallı insan kimi ad çıxarıb. Avqustda avtomobil qəzası edərək, yol polisi tərəfindən saxlanılan Matias Messinin avtomobilində keçən il tapança tapılmışdı.



## "FİFA reytinqi tam obyektiv deyil"

"FİFA reytinqinin hesablama sistemi tam obyektiv deyil. Biz bu məsələnin üzərində işləyirik". Apasport.az saytının məlumatına görə, bu sözləri FİFA-nın prezidenti Canni İnfantino deyib. DÇ-2018-in final mərhələsinin bu gün keçiriləcək püşkatması ərəfəsində müsahibə verən qurum başçısı əksər hallarda narazılıq yaradan FİFA reytinqinin hesablama sistemində dəyişikliklər ediləcəyini açıqlayıb: "Yeni reytinq sistemi piramida şəklində olacaq. Müxtəlif ölkələrin, fərqli qitələrin komandalarını müqayisə etmək çətindi. Onlar demək olar ki, bir-biri ilə heç qarşılaşmır. Təzadlar da yaranır. Bunu başa düşürük və üzərində çalışırıq". Qeyd edək ki, Azərbaycan yığması hazırkı reytinq siyahısında 281 xalla dünyanın 117-ci komandasıdı.

## Lavessi Çin çempionatında 20 qol vurmaqla rekorda imza atıb




"Xebey Çayna Forçun" futbol klubunun hücumçusu Esekiel Lavessi Çin çempionatında keçirdiyi 27 oyunda 20 qol vurub və 15 məhsuldar ötürmə edib. Otuz iki yaşlı argentinalı futbolçu bu göstərici ilə şəxsi rekordunu müəyyənləşdirib və bombardirlər siyahısında ikinci pillədə qərarlaşıb. Xarici KİV-lər xəbər verir ki, ötən mövsüm Lavessi PSJ və "Napoli"nin heyətində 9 qol vurub. Qeyd edək ki, futbolçu Çin çempionatının son 10 oyununda 1 məhsuldar ötürmə ilə yadda qalıb.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**